**DİQQƏT!**

**SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!**

Səs qəzeti artıq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

*Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.*

*QEYD: Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.*



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 160 (6124) 15 sentyabr 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## İlham Əliyev: “Sumqayıt bu gün nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzidir”



*Sumqayıt Kimya Sənaye Parkının nəzdində Peşə Təhsil Mərkəzinin açılışı olub*

Bax 2

## YAP ermənilərin Dağlıq Qarabağda qanunsuz məskunlaşdırılması ilə bağlı müraciət ünvanlayıb

*Yeni Azərbaycan Partiyası ermənilərin Dağlıq Qarabağda qanunsuz məskunlaşdırılması ilə bağlı beynəlxalq ictimaiyyətə, beynəlxalq siyasi partiya təşkilatlarına və tərəfdaş siyasi partiyalara müraciət ünvanlayıb. SİA-nın verdiyi məlumata görə, müraciətdə qeyd olunur ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin 20 faizini işğal altında saxlayan Ermənistan Azərbaycana qarşı düşmənçilik siyasətini genişləndirməkdə və regionda vəziyyəti daha da gərginləşdirən addımlar...*



Bax 5

## Rasim Quliyev: “Türk ittifaqı gələcəkdə dünyada sabitliyə töhfə verəcək bir güc mərkəzi olacaq”



Bax 6

*“Ümumiyyətlə, Türk ittifaqı ideyası həm Azərbaycanda, həm də Türkiyədə cəmiyyətlərin bir-birinə bağlılığı fonunda mövcud olub. Türk ittifaqını biz daha böyük formatda, çərçivədə təsəvvür edirik. Hətta biz bu ittifaqın təkcə Türkiyə və Azərbaycandan ibarət...*

## Bakının işğaldan azad edilməsindən 102 il keçir



*Bu gün 15 sentyabr Bakının işğaldan azad olunmasından 102 il keçir. Tarixin bu gününün yazılmasında Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusunun xüsusi rolu olub. 1918-ci il sentyabrın 15-də Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu Bakıya daxil olaraq, şəhəri erməni-bolşevik işğalından azad edir...*

Bax 10

## Bu əməlin adı nədir, səriştəsizlik, yoxsa düşmənçilik?



*Hazırda ölkədə yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi üçün dövlət büdcəsi hesabına irimiqyaslı layihələr icra olunur. Yol şəbəkəsinin yenidən qurulması, sözün əsl mənasında, ürək açır. Amma...*

Bax 7

## Ermənilər Əlibəyli kəndini atəşə tutmaqda davam edir

Bax 5



Ermənistan ordusu Tovuz istiqamətində yenə də gərginlik yaratmağa cəhd edir. Sentyabrın 13-də axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuz rayonunun Əlibəyli kəndini atəşə tutub. Azərbaycan Ordusunun bölmələri tərəfindən dərhal...

## Paşinyan gəlmə ermənilərdən canlı sipər yaratmaq istəyir



Bax 8

## ATƏT-in Minsk Qrupu həmsədrləri bəyanat yayıb



Bax 9

## “200 baldan yuxarı nəticə göstərən hər bir şəxs ali məktəbə daxil ola bilər”



Bax 12

# Prezident İlham Əliyev Əmircan qəsəbəsindəki 154 nömrəli məktəbin açılışında iştirak edib







***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Suraxanı rayonunun Əmircan qəsəbəsində Milli Qəhrəman Albert Aqarunovun adını daşıyan 154 nömrəli məktəbin yeni binasının açılışında iştirak edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Milli Qəhrəman, cəsur tankçı Albert Aqarunovun məktəbin həyətindəki büstünün önünə gül dəstəsi qoydu.

Məktəbdə yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevə bu təhsil ocağı haqqında məlumat verildi.

Bildirildi ki, məktəbin əvvəlki binası 1936-cı ildə inşa edilmişdi. Məktəbin 460 şagird yerlik binasında 22 sinif otağı var idi. Məktəbin binası yararsız vəziyyətdə olduğundan sökülərək yerində 58 sinif otağından ibarət 960 şagird yerlik müasir bina inşa olunub və yeni dərs ilində şagirdlərin istifadəsinə veriləcək.

Məktəbdə tikinti işləri 2019-cu ilin aprelində başlayıb və bu ilin avqust ayında başa çatdırılıb. Yeni binada sinif otaqları ilə yanaşı, kimya, fizika laboratoriyaları, informatika kabineti, kitabxana, bufet və idman zalı var. Yeni təhsil ocağında şagirdlərin təlim-tərbiyəsi ilə 52 nəfərdən ibarət pedaqoji heyət məşğul olacaq. Sinif otaqları və laboratoriyalar müasir zəruri avadanlıqlarla təchiz olunub. Məktəbin həyətində geniş abadlıq işləri aparılıb.

Qeyd edək ki, bu təhsil ocağının şərəfli həyat yolu hər bir məktəbli üçün nümunə olan Albert Aqarunovun adını daşıması gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi işində mühüm rola malikdir.

# Bakının Əmircan qəsəbəsində Murtuza Muxtarov adına park istifadəyə verilib

*Prezident İlham Əliyev parkda yaradılan şəraitlə tanış olub*

***Bakının Suraxanı rayonunun Əmircan qəsəbəsində Murtuza Muxtarov adına park istifadəyə verilib.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev parkın açılışında iştirak edib.

Dövlətimizin başçısı məşhur neft milyonçusu və görkəmli mesenat Murtuza Muxtarovun parkdakı büstünün önünə gül dəstəsi qoydu. Azərbaycan Prezidentinə parkda görülən işlər və yaradılan şərait barədə məlumat verildi.

Bildirildi ki, qəsəbənin Cabir Əliyev küçəsində yerləşən keçmiş "7 Qoç" parkı 1992-ci ildə salınıb. Uzun illər parkın ərazisində heç bir təmir işləri görülməyib. Qəsəbə sakinlərinin müraciəti nəzərə alınaraq parka əslən Əmircandan olan, XIX əsrdə ilk qazma avadanlığı zavodu açan və qazma dəzgahı ixtira edən xeyriyyəçi Murtuza Muxtarovun adı verilib, burada onun büstü qoyulub. Heydər Əliyev Fondunun dəstəyi ilə iki ay ərzində burada genişmiqyaslı abadlıq işləri aparılıb, gözəl və müasir park yaradılıb.







# İlham Əliyev: "Sumqayıt bu gün nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzidir"

*Sumqayıt Kimya Sənaye Parkının nəzdində Peşə Təhsil Mərkəzinin açılışı olub*

***"Sumqayıt Kimya Sənaye Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində Peşə Təhsil Mərkəzinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı mərkəzdə yaradılan şəraitlə tanış oldu.***



İqtisadiyyat naziri Mikayıl Cabbarov və "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin direktoru Nazim Talıbov Prezident İlham Əliyevə Təhsil Mərkəzi barədə məlumat verdilər.

Bildirildi ki, Peşə Təhsil Mərkəzinin binası 500 tələbənin təhsil alması üçün nəzərdə tutulub. Mərkəzin binası 6 korpusdan ibarətdir. Korpuslarda 23 tədris otağı, 13 laboratoriya, 154 nəfərlik akt zalı, 184 nəfərlik yeməkxana, kitabxana, kompüter otağı, idman zalı və 24 inzibati otaq var.

Hazırda Peşə Təhsil Mərkəzinə 2020/2021-ci tədris ili üzrə torna və frezer dəzgahlarının, proqramla idarə olunan dəzgahların operatorları, elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru, sənayedə quraşdırma işləri üzrə usta, vebdizayner və proqram təminatçısı ixtisasları üzrə tələbə qəbulu həyata keçirilir.

Mərkəzin təhsil proqramı beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanıb. Tədris prosesinə Sumqayıt Kimya Sənaye Parkının rezidentlərinin mütəxəssisləri cəlb olunub. Tələbələrin ixtisas fənləri üzrə dərslərinin



80 faizi Sumqayıt Kimya Sənaye Parkının müəssisələrində keçiriləcək. Həmçinin praktiki dərslərin təşkili məqsədilə mərkəzdə təlim avadanlıqları stendləri quraşdırılıb.

Qeyd edək ki, sənayeləşmə Prezident İlham Əliyevin iqtisadi siyasətinin mühüm tərkib hissəsidir. Əsas məqsəd tələbatın ödənilməsində yerli məhsulların payının artırılması, ixrac potensialının yüksəldilməsi, ümumilikdə neft-qaz amilindən asılılığın daha da azaldılmasıdır. Bu strategiyanın uğurlarını Sumqayıt Kimya Sənaye Parkının timsalında real rəqəmləri əks etdirən statistikada görmək olar. Belə ki, 2019-cu ilin birinci yarım ili ərzində burada 258 milyon manatlıq məhsul istehsal edilmişdisə, 2020-ci ilin müvafiq dövründə 2 dəfə çox - 534 milyon manatlıq məhsul buraxılıb. İxrac isə 2019-cu ilin ilk 6 ayındakı rəqəmlə (121 milyon manat) müqayisədə 1,5 dəfə artaraq 2020-ci ilin birinci yarısında 182 milyon manat təşkil edib.

Prezident İlham Əliyev: Hesablayın, ümumiyyətlə, illik ümumi daxili məhsul hansı həcmdədir.

Mikayıl Cabbarov: Möhtərəm cənab Prezident, Sizin tapşırığınızla hazırda Prezident Administrasiyasının aidiyyəti qurumları ilə hər bir bölgəmiz üçün ümumi daxili məhsulun, investisiyaların cəlb edilməsi, adambaşına düşən ümumi daxili məhsulun hamısının qiymətləndirilməsini aparırıq.

Prezident İlham Əliyev: Bəli, qiymətləndirin. Çünki mən dəfələrlə icra başçıları ilə görüşlərdə demişdim ki, onların fəaliyyətinin əsas istiqamətlərindən biri də məhz bunlar olmalıdır - investisiyaları cəlb etmək, iş yerləri yaratmaq, eyni zamanda, rayon və şəhərlərdə gedən işlərə təkan vermək.

Xatırladaq ki, hazırda Sumqayıt Kimya Sənaye Parkında məhsul istehsalı və ixrac istiqamətində müsbət dinamika mövcuddur. Ümumilikdə 2019-cu ildə Sumqayıt Kimya Sənaye Parkında 823 milyon manatlıq məhsul istehsal edilib ki, bunun da 276 milyon manatı - təqribən 33 faizi ixrac olunub. 2020-ci ilin ilk 6 ayı ərzində 534 milyon manatlıq məhsul istehsalı ilə Sumqayıt Kimya Sənaye Parkının ölkə sənayesinin qeyri-neft sektorunda (5,7 milyard manat) xüsusi çəkisi 9,3 faiz, 182 milyon manatlıq ixracla ölkə üzrə qeyri-neft sənaye məhsullarının ixracında (910 milyon manat) xüsusi çəkisi 20 faiz təşkil edib. Hazırda parkda fəaliyyət göstərən müəssisələrdə 5500-dən çox insan daimi işlə təmin olunub.

Prezident İlham Əliyev: Mən demişəm ki, Sumqayıt bu gün nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzidir. Sumqayıtın potensialı daha da güclənir. Bu il burada şüşə istehsalı zavodu da fəaliyyətə başlayacaq. Oraya da böyük investisiyalar qoyulub və bizi şüşə ilə təmin edəcəkdir. Baxmayaraq ki, indi tikinti sektoru pandemiyaya görə bir qədər tənəzzülə uğrayıb, amma o, bərpa edilir və ediləcək. Biz özümüzü yerli şüşələrlə təmin edəcəyik. Bu da böyük nailiyyətdir.



Biz daxili tələbatı nə qədər mümkünsə, yerli məhsullar hesabına təmin etməliyik. Burada Sumqayıt şəhərinin və xüsusilə Kimya Sənaye Parkının mühüm rolu var. Çünki biz son illərdə bu işləri görməklə buna böyük dərəcədə müvəffəq olmuşuq. İndi əsas işimiz ondan ibarətdir ki, baxmalıyıq, harada bizdə idxaldan asılılıq daha böyükdür və bunu əvəzləmək mümkündürsə, bunun üçün xammal varsa, yaxud da texniki-iqtisadi əsaslandırma buna imkan verirsə, mütləq həmin sahələrə böyük diqqət göstərilməlidir. Belə təşəbbüs göstərən şirkətlərə həm rezident statusu verilməlidir, eyni zamanda, dövlət tərəfindən onlara kömək göstərilməlidir, güzəştli kreditlər ayrılmalıdır ki, biz idxaldan asılılığımızı maksimum dərəcədə azaldaq. Çünki hər bir ölkə buna çalışır və xüsusilə əhalisi artan ölkə - Azərbaycan buna mütləq çalışmalıdır.

Ardı Səh. 4

# İlham Əliyev: “Sumqayıt bu gün nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzidir”

*Sumqayıt Kimya Sənaye Parkının nəzdində Peşə Təhsil Mərkəzinin açılışı olub*

Əvvəli Səh. 3



Təbii ki, bizim neft yataqlarımız nə vaxtsa tükənəcək. Düzdür, biz yaxın müddətdə həm yeni neft, həm də qaz yataqlarının istismarına başlayacağıq, çalışacağıq ki, hasilat səviyyəsi sabit olaraq qalsın. Ancaq bizim əsas gəlir mənbəyimiz olan “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarında təbii tənəzzül də qaçılmazdır. Biz bu boşluğu məhz qeyri-neft sektoru hesabına təmin etməliyik. Tədiyə balansını müsbət səviyyədə saxlamaq üçün əlbəttə ki, bizə çox keyfiyyətli ixracyönümlü məhsul istehsal edən, valyuta gətirən müəssisələr lazımdır. Çünki bu gün tədiyə balansımızın müsbət səviyyədə saxlanmasının əsas səbəbi neft-qaz amilidir. Amma biz çalışmalıyıq ki, bu amili kənara qoymaqla ixrac-idxal əməliyyatlarında həmişə müsbət saldoya malik olaq. Ona görə ixracyönümlü və idxalı əvəzləyə biləcək istehsalat sahələri mütləq yaradılmalıdır. Burada siqaret fabriki fəaliyyətə başlayıb və artıq statistikada görürük ki, idxaldan asılılıq nə qədər azalıbdır. Elədirmi?

Mikayıl Cabbarov: Bəli.

Prezident İlham Əliyev: Çünki biz bu fabrik işə düşənə qədər daha çox idxaldan asılı idik. İndi biz 300 milyon manata qənaət etmişik. Eyni zamanda, bu fabrikin inkişaf potensialı da var. Mən fabrikin açılışında demişdim, çalışın ikinci, üçüncü xətləri də qurun ki, istehsalat artsın və biz bu məhsulu ixrac edə bilək. O vaxt da demişdim, mən



elə onu istəyirəm ki, bu məhsulun hamısı ixraca getsin, Azərbaycanda heç kim siqaret çəkməsin və daxili tələbat olmasın. Amma əlbəttə ki, bu, mümkün deyil, ancaq buna çalışmalıyıq. O cümlədən təbliğat işlərimizi düzgün qurmalıyıq, bundan başqa, təbii ki, qadağalar qüvvəyə minibdir. Ona görə mən bu fabriki gələcəkdə sırf ixracyönümlü müəssisə kimi görürəm və belə misallar çox gətirmək olar. İndi bizim tütün istehsalımız, keyfiyyətli avadanlığımız var. Mən deyirdim ki, tütün istehsalı olmayan bəzi ölkələr nə üçün bizə məhsul ixrac edir. Onlar tütünü xaricdən alırlar və sonra onu emal edib satırlar. Düzdür, siz də bilirsiniz ki, siqaret istehsalında biz xarici tütündən də asılıyıq. Ancaq qarşıya vəzifə qoyulub ki, yerli tütünçülərdən də məhsul alınsın və beləliklə, kənd təsərrüfatının inkişafına da təkan verilsin.

Bu gün biz Sumqayıt Kimya Sənaye Parkının timsalında yeniləşən, güclənən Azərbaycanı görürük. Xüsusilə yada salmalıyıq ki, bu ərazidə nələr olub, biz bu qərarı verəndə bu ərazi hansı vəziyyətdə idi. Çürümüş, dağılmış, fəaliyyətini başa vuran müəssisələr, həm ekoloji fəlakət zonası, həm də ki, istifadəsiz qalan torpaqlar idi. İndi isə burada yüzlərlə hektar sahədə sənaye parkı qurulubdur. Sahəsi nə qədərdir?

Mikayıl Cabbarov: Ümumi ərazisi 508 hektardır.

Prezident İlham Əliyev: 508 hektar, amma yəqin ki, hələ genişlənəcək.

“Sumqayıt Kimya Sənaye Parkı” MMC-nin direktoru Nazim Talıbov: 80 faizdən çox məskunlaşıb, cənab Prezident.

Prezident İlham Əliyev: Yaxın iki-üç ildə tam dolacaq?

Nazim Talıbov: Bu dinamika ilə getsək bəli, yaxın iki-üç ildə tam dolacaq.

Prezident İlham Əliyev: Ona görə yeni ərazilər lazımdır. Burada, Sumqayıtın ətrafında belə ərazilər çoxdur. Siz bəlkə o ərazilər üçün də artıq indidən plan işləyib tərtib edəsiniz ki, - o yerlərin təmizlənməsi, kommunikasiyaların çəkilməsi və digər lazımi məsələlər, - bu iş dayanmasın. Çünki xarici investorların ölkəmizə marağı artır, mən yerli investorları da istiqamətləndirmişəm ki, Azərbaycana pul qoysunlar. Beləliklə, burada inkişaf o qədər sürətli olmalıdır ki, həm işsizlik aşağı səviyyədə olsun, həm idxaldan asılılıq minimuma endirilsin, həm də ixrac qabiliyyətli məhsullar istehsal edilsin.

Mikayıl Cabbarov: Möhtərəm cənab Prezident, biz Sizin çağırışınıza artıq sahibkarlardan reaksiya alırıq - həm Azərbaycanda, həm də ölkəmizdən kənarda fəaliyyət göstərən iş adamlarından. Baxmayaraq ki, biz hələ mövcud karantin dövründə yaşayırıq, amma əlaqə saxlanılıb, müraciətlər var. Mən güman edirəm ki, növbəti bir il ərzində bu çağırışın da real nəticələri barədə Sizə məruzə olunacaq.

Prezident İlham Əliyev: Çox yaxşı. Eyni zamanda, əlbəttə, mən çıxışımda xaricdə yaşayan azərbaycanlı iş adamlarına da müraciət edirdim ki, onlar da gəlib Azərbaycana vəsait qoysunlar. Azərbaycan onların vətənidir və onlar hər zaman Azərbaycanın dəstəyini görürlər, güclü Azərbaycan onların da gücünü artırır. Ona görə azərbaycanlılar müxtəlif ölkələrdə iqtisadiyyat, kommersiya, biznes sahələrində böyük uğurlar əldə ediblər. Onlar da öz vətəninə vəsait qoymalıdırlar, öz vətəni ilə daim əlaqə saxlamalıdırlar, öz uşaqlarını Azərbaycan dəyərləri əsasında, milli ruhda tərbiyə etməlidirlər ki, övladları həm Azərbaycan dilini bilsinlər, həm də bizim milli dəyərlərimizi yaşatsınlar. Əgər biz bütün bu amilləri düzgün istiqamətə səfərbər edə bilsək, onda Azərbaycana investisiya axını dayanmayacaq. Bizim də əsas məqsədimiz budur. Xüsusilə dünyada yaşanan, pandemiya nəticəsində dərinləşən böhran, əlbəttə ki, bir çox şirkətlərə mənfi təsir göstərib. Ancaq məhz bu şəraitdə biz elə addımlar atmalıyıq ki, postpandemiya dövrünə ən hazırlıqlı ölkələr sırasında olaq və dərhal, vaxt itirmədən yeni inkişaf dinamikasına sahib olaq.

Qeyd olunduğu kimi, Sumqayıt Kimya Sənaye Parkının ərazisinin təxminən 85 faizində müəssisələr yaradılıb. Bu templə yaxın 2-3 il ərzində parkın ərazisi tam dolacaq. Bu, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi sənayeləşmə strategiyasının uğur göstəricisi kimi də qiymətləndirilməlidir. Strategiya özündə gələcəyə aydın baxışı və daimi inkişafı ehtiva edir.

Prezident İlham Əliyev: Mən qeyd etdiyim kimi, Sənaye Parkının gələcək inkişafı ilə bağlı təkliflər hazırlayın, yerləri seçin. Çünki yenə də deyirəm, belə templə ki, biz gedirik 2-3 ilə bütün bu yerlər dolacaq və 508 hektarda yer qalmayacaq. Ona görə baxın, harada biz bunu davam etdirə bilərik. Şərt deyil ki, bu əraziyə bitişik olsun, buradan bir qədər kənarda ola bilər, amma əsas odur ki, bu yerə rezident statusu veriləcəkdir. Təmizlik, kommunikasiya işlərinə bəlkə də elə bu ildən, vaxt itirmədən başlamaq olar. Çünki bu da vaxt aparacaq. Biz o zaman bu ərazini təmizləyəndə buna təqribən bir il vaxt lazım oldu. Həm təmizləmə, ondan sonra kommunikasiya işləri. Ona görə bəlkə ilin sonuna qədər müəyyən vəsait də ayrıla bilər ki, yeni seçilmiş yerdə biz bu işləri görək, növbəti investorlar artıq maraq göstərəndə vaxt itirməsinlər.

X X X

Beləliklə, Sumqayıt Kimya Sənaye Parkının ümumi inkişaf tendensiyası yeniliklərə münasibətilə fərqlənir. Elə nəzdində açılışı olan Peşə Təhsil Mərkəzini də bu xüsusda fərqləndirmək olar. Çünki ilk dəfədir ki, ölkədəki sənaye parkı ərazisində peşə təhsili müəssisəsi yaradılır, bununla da bir neçə strateji hədəfə nail olunur: tələbələrə müasir infrastruktura malik mərkəzdə dövrün tələbinə uyğun bacarıqlar və peşə vərdişləri aşılanacaq. Təlim-tədris prosesində iştirak edəcək mütəxəssislər elə parkın rezidentlərinin yüksəkixtisaslı işçilərindən olacaq. Öz növbəsində tələbələr də Sumqayıt Kimya Sənaye Parkının müəssisələrində təcrübə keçməklə, iş yeri əldə etmək imkanı qazanacaqlar.

# YAP ermənilərin Dağlıq Qarabağda qanunsuz məskunlaşdırılması ilə bağlı müraciət ünvanlayıb



***Yeni Azərbaycan Partiyası ermənilərin Dağlıq Qarabağda qanunsuz məskunlaşdırılması ilə bağlı beynəlxalq ictimaiyyətə, beynəlxalq siyasi partiya təşkilatlarına və tərəfdaş siyasi partiyalara müraciət ünvanlayıb. SİA-nın verdiyi məlumata görə, müraciətdə qeyd olunur ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin 20 faizini işğal altında saxlayan Ermənistan Azərbaycana qarşı düşmənçilik siyasətini genişləndirməkdə və regionda vəziyyəti daha da gərginləşdirən addımlar atmaqda davam edir.***

Beynəlxalq ictimaiyyətin diqqətini erməni vəhşiliklərinə, təxribatlarına, eləcə də, ayrı-ayrı ölkələrdən olan ermənilərin Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni məskunlaşdırılmasına cəlb etmək məqsədi daşıyan müraciətdə daha sonra qeyd olunur: "İyul ayında Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında xüsusi yeri olan neft və qaz kəmərlərinin keçdiyi bölgəyə yaxın ərazidə, Ermənistan-Azərbaycan dövlət sərhəddində bir mülki azərbaycanlının və çoxlu sayda hərbçinin ölümü ilə nəticələnən silahlı qarşıdurma yaradan Ermənistan, bundan qısa müddət sonra sərhəddin başqa bir hissəsində hərbi təxribata cəhd etdi.

Hərbi təxribatları intensivləşdirən və eyni zamanda destruktiv, məsuliyyətsiz ritorika ilə sülh danışıqlarını pozan Ermənistan rəhbərliyi indi də ələ keçirilmiş Azərbaycan ərazilərində qanunsuz məskunlaşdırma siyasətinin yeni və daha aqressiv mərhələsinin başlanğıcını qoyur. Azərbaycan da daxil olmaqla dünya ölkələri Livanda baş vermiş faciənin nəticələrinin aradan qaldırılması, Livana humanitar yardım göstərilməsi ilə məşğul olarkən, Ermənistan bu faciədən işğal etdiyi ərazilərin demoqrafik vəziyyətini dəyişmək üçün sui-istifadə edir. Erməni mənbələrinin yaydığı məlumatlara görə, artıq bir neçə livanlı erməni ailəsi Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində yerləşdirilib və mümkün qədər çox Livan ermənisinin bu prosesə cəlb olunması planlaşdırılır.

Ermənistan uzun illərdir ki, Yaxın Şərqin bəzi ölkələrindən gətirilən erməniləri Azərbaycanın Dağlıq Qarabağ bölgəsində və ona bitişik rayonlarında qeyri-qanuni şəkildə yerləşdirməkdədir. Ermənistan tərəfindən həyata keçirilən qanunsuz məskunlaşma faktı ATƏT-in faktaraşdırma missiyalarının müvafiq hesabatlarında da əksini tapıb.

Ermənilərin Dağlıq Qarabağda qanunsuz məskunlaşdırılması, Ermənistanın "repatriasiya" və "humanitar yardım" adı altında ilhaq siyasətinin bir hissəsidir. Məskunlaşdırma siyasətinin aparılması və işğal olunmuş ərazilərin demoqrafik tərkibinin məqsədyönlü şəkildə dəyişdirilməsi cəhdləri beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il Cenevrə Konvensiyalarının kobud şəkildə pozulmasıdır. Müharibə dövründə mülki əhalinin qorunmasına dair 4-cü Cenevrə konvensiyasına əsasən, işğalçı dövlət öz mülki əhalisini işğal etdiyi əraziyə köçürməməlidir. Beynəlxalq hüquqa əsasən, işğalçı dövlət tərəfindən işğal olunmuş ərazilərdə məskunlaşdırma siyasətinin aparılması müharibə cinayəti hesab olunur və bu baxımdan, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində apardığı qeyri-qanuni məskunlaşdırma ilə növbəti müharibə cinayətini törətməkdədir.

İstehza doğuran faktdır ki, bu əməli ilə Ermənistan təkcə beynəlxalq hüququ deyil, elə öz qanunlarını da pozur. Ermənistanın Cinayət Məcəlləsinin 390-cı maddəsində işğalçı dövlətin işğal olunmuş ərazilərdən əhalini çıxararaq öz əhalisini məskunlaşdırması beynəlxalq humanitar hüququn ciddi pozuntusu sayılır və 8-12 illik həbs cəzası nəzərdə tutulur. Qeyd edək ki, Ermənistan Suriya və Livandan işğal olunmuş ərazilərə köçürülmüş insanları silahlı muzdlular kimi də istifadə edərək onları özünün avantürist siyasətinin qurbanlarına çevrir.

Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarında yaratdığı və idarə etdiyi qondarma rejim isə son günlər Azərbaycanın digər ərazilərini də işğal etmək niyyətini bildirərək, əhalinin sıx məskunlaşdığı Gəncə şəhərini raket atəşinə tutmaqla hədələyib. Danışıqlardan faktiki olaraq imtina edən, Azərbaycan ərazilərinin ilhaqına yönələn açıq təxribatçı çağırışlar və hərəkətlər edən Ermənistanın siyasi və hərbi rəhbərliyi vəziyyətin son dərəcə gərginləşməsinə və baş verə biləcək istənilən təxribata və silahlı insidentə görə məsuliyyət daşıyır."

Yeni Azərbaycan Partiyasının beynəlxalq təşkilatlara müraciətində daha sonra bildirilir: "Azərbaycan hər zaman olduğu kimi, münaqişənin beynəlxalq hüquqa, ərazi bütövlüyü və suverenliyə hörmət prinsipinə, eləcə də Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinə əsaslanan həllinə nail olmaq məqsədinə sadiqdir.

Yeni Azərbaycan Partiyası beynəlxalq ictimaiyyəti, beynəlxalq siyasi partiya təşkilatlarını və tərəfdaş siyasi partiyaları bölgədə sülhün, sabitliyin və ədalətin təmin olunması naminə Ermənistanın təxribatçı əməllərini pisləməyə və Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz köçürməyə son qoyulmasını tələb etməyə çağırır".

***Ceyhun Rasimoğlu***

# Ermənilər Əlibəyli kəndini atəşə tutmaqda davam edir




Ermənistan ordusu Tovuz istiqamətində yenə də gərginlik yaratmağa cəhd edir. Sentyabrın 13-də axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuz rayonunun Əlibəyli kəndini atəşə tutub. Azərbaycan Ordusunun bölmələri tərəfindən dərhal həyata keçirilən cavab tədbirləri nəticəsində düşmən susdurulub, itki yoxdur.

AZƏRTAC xəbər verir ki, düşmənin kəndlərimizi iriçaplı silahlardan atəşə tutması onun məkrli niyyətini göstərir. Əlibəyli kəndinin sakinləri artıq uzun illərdir atəş səslərinə öyrəşdiklərindən gündəlik işləri ilə məşğuldurlar. Sakinlər bildirirlər ki, ermənilər atəşkəsi pozsa da, güllə səsləri onları narahat etmir. Ordumuza güvənən sakinlər həyət-baca, əkin-biçin işləri ilə məşğuldurlar. Əlibəyli kənd sakini Fərhad Tanrıverdiyev qeyd edib ki, düşmən axırıncı dəfə sentyabrın 13-də kəndi, dinc sakinlərin evlərini atəşə tutub: "Evlərimizi əsasən gecə atəşə tuturlar. Onların məqsədi kənd sakinlərini qorxutmaqdır. Amma bu istəklərinə nail ola bilməyəcəklər. Ordumuz, əsgərlərimiz onların cavabını layiqincə verirlər. Düşmənin məkrli niyyəti baş tutmayacaq. Biz öz ordumuza güvənirik. Kənddə həyat öz axarı ilə davam edir. Hamı indi payız mövsümü ilə əlaqədar mal-qarasının qış tədarükünü görür".

Kəndə qonaq gələn Namiq Musayev də düşmənin açdığı atəş səslərini eşidib. O da digər sakinlər kimi, əsgərlərimizə güvəndiyini deyib. "Mən Əlibəyli kəndinə qonaq gəlmişəm. Biz heç nədən qorxmadan, çəkinmədən öz yurdumuzdayıq. Qoy düşmən qorxsun! Ordumuzla qürur duyuruq, fəxr edirik. Bu torpaqlar bizimdir. Erməni kimdir ki, ondan qorxaq?!" - deyə N.Musayev bildirib.

Qeyd edək ki, düşmənin son təxribatı zamanı hərbçi və mülki şəxslərdən ölən və ya xəsarət alan olmayıb. Hazırda cəbhəboyu ərazilərdə vəziyyət tam olaraq ordumuzun nəzarəti altındadır.

# YAP Gənclər Birliyinin Ofisində 700 bal toplamış gənclərlə görüş keçirilib



Sentyabrın 14-də Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin Ofisində builki qəbul imtahanlarında ən yüksən nəticə göstərərək 700 bal toplamış gənclərlə görüş keçirilib. SİA-nın verdiyi məlumata görə, görüşdə çıxış edən YAP Gənclər Birliyinin sədr müavini, partiyanın Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Ramin Məmmədov gəncləri qazandıqları böyük uğur münasibətilə təbrik edib. O qeyd edib ki, Azərbaycanda təhsilin inkişafı dövlət siyasətinin mühüm tərkib hissəsidir. Ölkəmizdə hər bir sahədə müşahidə olunan dinamik inkişaf təhsil sektorunda da aşkar şəkildə nəzərə çarpır. Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində atılan addımlar, icra edilən Dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişaf meyillərinin meydana çıxmasını, yüksək nəticələrin qazanılmasını şərtləndirir.

R.Məmmədov bildirib ki, bu gün təhsilin bütün pillələrində yeni layihələrin, islahatların reallaşdırılması istiqamətində mühüm addımlar atılır. Təhsil sahəsində həyata keçirilən islahatlar - təhsildə infrastrukturun yenilənməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, ümumtəhsil məktəblərinin kadr potensialının və tədrisin keyfiyyətinin yüksəldilməsi xüsusi qeyd edilməlidir. Onun sözlərinə görə, Prezident İlham Əliyevin siyasətində insan kapitalının inkişafı mühüm yer tutur. Məhz bu siyasətin nəticəsidir ki, ölkəmizdə gənclərin yüksək təhsil alması üçün bütün imkanlar yaradılıb. Qəbul imtahanlarında gənclərin yüksək nəticələr qazanması da bu reallığın ifadəsidir.

Yeni Azərbaycan Partiyasının da gəncliyin inkişafı üçün önəmli layihələr həyata keçirdiyini deyən R.Məmmədov partiyanın sıralarında intellektual gənclər ordusunun birləşdiyini diqqətə çatdırıb. O, partiyanın və onun Gənclər Birliyinin bütün gənclərlə əməkdaşlığa hazır olduğunu bildirb və qeyd edib ki, sizlərə də partiyamız hər zaman dəstək verməyə hazırdır.

Görüşdə həmçinin,YAP Gənclər Birliyinin sədr müavini Aytac Əliyeva və Gənclər Birliyinin Ofis rəhbəri Elmar Məmmədov çıxış edərək gənclərə ali təhsillərində uğurlar arzulayıblar. Öz növbəsində, qəbul imtahanlarında 700 bal toplamış Əziz Kərimli və Hüseyn Abdullayev belə bu uğurun qazanılmasının qürurverici olduğunu bildiriblər. Onlar qeyd ediblər ki, bu uğurun qazanılmasının əsasında Prezident İlham Əliyevin təhsil sahəsinə göstərdiyi diqqət və qayğı dayanır.

700 bal toplamış gənclər gələcəkdə YAP sıralarına qoşulmaları və partiyanın Gənclər Birliyi ilə fəal əməkdaşlıq etmək niyyətlərini də ifadə ediblər. Görüşün sonunda 700 bal toplamış gənclərə Yeni Azərbaycan Partiyası tərəfindən "Notebook" hədiyyə edilib.

# Adil Əliyev: "Şantaj dövlət adamına yox, kriminal ünsürlərə xas keyfiyyətdir"



"Ramiz Mehdiyevin "Təzadlar" qəzetinə açıqlama verib-vermədiyi sualı hələ də açıq qalır. AMEA belə bir açıqlama vermədiyini bildirir, "Təzadlar" qəzeti isə israrla öz mövqeyinin üzərində dayanır. Bu mübahisəni onların öz ixtiyarlarına buraxıram". SİA xəbər verir ki, bu fikirləri Milli Məclisin vitse-spikeri Adil Əliyev mediaya açıqlamasında bildirib. Lakin Ramiz Mehdiyevin bundan əvvəlki açıqlamalarında da bənzər ittihamların yer aldığını xatırladan vitse-spiker akademikin "nankor və "süfrə qırıntıları ilə yaşayanlar" ittihamları üzərində dayanıb.

"Ötən açıqlamasında Ramiz Mehdiyevin əleyhdarlarını "satqın", "əqidəsini dəyişən", "həris", "nankor" kimi səciyyələndirmişdi", deyə qeyd edən Adil Əliyev qarşı tərəfin "Təzadlar"da dərc olunan açıqlamasının da eyni mahiyyət daşıdığını bildirib və onu da deyib ki, Ramiz Mehdiyevin verdiyi açıqlamanın arxasından nəyə görə qaçması şəxsən ona aydın deyil.

Digər tərəfdən, AMEA rəhbərinin əlində olan faktları ortaya qoysa, bir çoxlarının respublikadan baş götürüb qaçacaqları ilə bağlı təhdidinə də münasibət bildirən vitse-spikerə görə, onun bu fikirləri bir zamanlar haqqında yayıldığı ittihamlarla həmahəng səslənir. Adil Əliyev bununla da bağlı arqumentlərini irəli sürüb: "Əvvəla, adama deyərlər ki, kimlərinsə respublikadan baş götürüb qaçmasına səbəb olacaq o faktlar səndə nə gəzir? Belə çıxır ki, o cinayətləri həmin ünsürlərlə ya bərabər həyata keçiribsən, ya da onlara himayədarlıq edibsən. Yox, əgər bunların heç birini etməyibsənsə, niyə indiyə qədər susubsan? Niyə hüquq-mühafizə orqanlarını bu barədə məlumatlandırmamısan? Elə bu faktın özü Ramiz Mehdiyevin cinayətkarlara himayədarlıq etdiyinin sübutudur. Çünki cinayətə göz yummaq da o cinayətdə iştirak etmək deməkdir.

İkincisi, "susmasanız, faktları açıqlayaram" məntiqinin cinayət hüququnda bir adı var - şantaj. Ramiz Mehdiyev uzun illərdir dövlət adamı statusunu daşıyır. Şantaj dövlət adamına yox, kriminal ünsürlərə xas keyfiyyətdir".

"Ən əsası isə, bilirsiniz ki, zaman-zaman Azərbaycan ictimai rəyində ölkədə baş verən bir çox qətl hadisələrinin, adam oğurluqlarının, gömrükdən və vergidən yayınmaların başında bu adamın durduğu iddia olunurdu", deyən Adil Əliyev mətbuatda bu iddiaları təsdiqləyən kifayət qədər məlumatların və dəlillərin olduğunu da xatırladıb: "Bu mənada, həmin təhdidlərin kimlərə ünvanlandığı aydındır. Əlbəttə, sözügedən iddiaların bəziləri sadəcə qarayaxma da ola bilər. Odur ki, həmin adamlar konkret mövqe ortaya qoymalı, iddiaları ciddi dəlillərlə inkar etməli, təhdidlərinə boyun əyməmdiklərini açıq-aşkar sergiləməlidirlər".

# Milli Məclis Sədrinin müavini qəbul imtahanlarında yüksək bal toplayan tələbələrlə görüşüb

***Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev builki qəbul imtahanında ən yüksək nəticə göstərərək 700 bal toplamış gənclərlə görüşüb.***



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Sədr müavini ölkəmizdə bütün sahələrdə dinamik inkişafın müşahidə edildiyini, o cümlədən təhsil sistemində nəzərəçarpacaq müsbət dəyişikliklərin olduğunu, bu tendensiyaların hazırda da uğurla davam etdiyini bildirib.

Adil Əliyev vurğulayıb ki, Prezident İlham Əliyevin təhsilə göstərdiyi diqqət və qayğı nəticəsində nəzərdə tutulan işlər uğurla yerinə yetirilir. Belə ki, hazırda ali təhsil sahəsində ikili diplom proqramları icra edilir və həmin proqramların tərkib hissəsi olaraq gənclərimizin xarici ölkələrdə təhsillərini davam etdirməsi məqsədilə lazımi şərait yaradılır. O bildirib ki, həyata keçirilən islahatların ana xəttində insan kapitalının inkişafı mühüm yer tutur. Bu baxımdan, ölkənin gələcək tərəqqisinin məhz savadlı, vətənpərvər gənclərin əlində olduğunu əminliklə bildirib. Adil Əliyev gənclərə milli-mənəvi dəyərlərimizə bağlı, layiqli vətəndaş olaraq yetişmələrini, təhsildə qazandıqları uğurların ardıcıl olmasını arzulayıb.

Qəbulda imtahanda ən yüksək - 700 bal toplamış Əziz Kərimli və Hüseyn Abdullayev görüşə görə minnətdarlıqlarını bildiriblər. Tələbələr qazandıqları uğurları mütəmadi olaraq dərslərə ciddi hazırlaşmalarında gördüklərini deyərək, artıq gələcəkdə sahib olmaq istədikləri ixtisasları seçdiklərini qeyd ediblər. Adil Əliyev bir daha gənclərimizi təbrik edərək, onlara təhsildə uğurlar arzulayıb. O, Milli Məclisin Gənclər və idman komitəsinin gənclərin fəaliyyətini daim yaxından izlədiyini, gələcəkdə də onlarla əməkdaşlığı davam etdirmək niyyətində olduğunu bildirib.

# Rasim Quliyev: “Türk ittifaqı gələcəkdə dünyada sabitliyə töhfə verəcək bir güc mərkəzi olacaq”

***“Ümumiyyətlə, Türk ittifaqı ideyası həm Azərbaycanda, həm də Türkiyədə cəmiyyətlərin bir-birinə bağlılığı fonunda mövcud olub. Türk ittifaqını biz daha böyük formatda, çərçivədə təsəvvür edirik. Hətta biz bu ittifaqın təkcə Türkiyə və Azərbaycandan ibarət olmaması barədə düşünürük və çağırışlar edirik”. Bu fikirləri SİA-ya açıqlamasında “Resurs” Analitik İnformasiya Mərkəzinin rəhbəri, siyasi ekspert Rasim Quliyev deyib.***



Siyasi ekspertin sözlərinə görə, bu gün Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) adlı bir qurum mövcuddur və Azərbaycan da həmin bu quruma sədrlik edir: “TDƏŞ həm Azərbaycan dövlətinin milli maraqları baxımından çox böyük önəmə malikdir, həm də perspektivinə inandığımız bir formatdır. TDƏŞ adından da göründüyü kimi əməkdaşlıq üçün bir formatdır. Hazırda bu Şurada Azərbaycan, Türkiyə, Orta Asiya dövlətləri təmsil olunur, müşahidəçi qismində isə Macarıstan iştirak edir. Bu qurumun yaranması ətrafında ilk ideya 2006-cı ildən səsləndirilsə də amma 2009-cu ildə Naxçıvanda Türkiyə, Azərbaycan və Qazaxıstanın iştirakı ilə “Naxçıvan” sazişi imzalanıb və orada bu Şuranın yaradılması elan edilib. Hazırda həmin Şurada 8 dövlət müşahidəçi qismində və Şuranın üzvü kimi təmsil olunur. Maraqlı məqam odur ki, biz o Şurada Avropa dövləti və qeyri müsəlman bir dövlət olan Macarıstanı görürük. Bunun özü də TDƏŞ-nin perspektivindən və əməkdaşlığın yeni formatından xəbər verir. Bu gün əməkdaşlığı, tərəfdaşlığı bütün dövlətlər edə bilər. Türk ittifaqı isə müttəfiqlik demək deyil. Müttəfiq olub bir ittifaqda birləşmək konkret öhdəliklər verir. Bir çox dövlətlər bəzi məsələlərdə tərəfdaşlıq və əməkdaşlıq edə bilər. Məsələn, biz Rusiya ilə bir çox məsələlərdə (siyasi, iqtisadi, humanitar, miqrasiya və s.) əməkdaşıq və tərəfdaşıq. Ancaq biz bu dövlətlə bir ittifaqda deyilik və strateji müttəfiq deyilik. Çünki bir çox məsələlərdə bizim milli maraqlarımız Rusiyanın istəklərinə cavab vermir. Bu məsələlərdə Azərbaycan öz milli dövlət maraqlarından çıxış edərək müstəqil siyasət yürüdür.

Qeyd edim ki, bu gün texnoloji inkişaf prosesləri daha da sürətləndirir. Bu baxımdan növbəti 10 ildən sonra yəni, 2030-2040-cı illərdə Türk Şurası daha çevik əməkdaşlıq şurası olacaq və Rusiya o zaman həmin Şuraya müraciət edəcək. Düşünürük ki, Türk ittifaqı isə 2030-2040-cı illərdə dünyada sabitliyə töhfə verə biləcək bir güc mərkəzi olacaq. Məsələn, bu gün Avropa dövlətlərinin ittifaqı bir yerə yığışblar ancaq onlar xristian klubu, islamafobiya psixologiyasından irəli gedə bilmirlər və bilmədilər də. Konkret olaraq bəzi dövlətlərə və Türkiyəyə olan münasibətdə göründü ki, Avropa ittifaqı islamafobiya psixologiyasından qurtula bilmədi və xristian klubu olaraq qaldı. Ona görə də bu gün Avropa ittifaqı tənəzzülə uğrayır. Bizim regionda Rusiyanın yaratdığı ikinci bir ittifaq isə Avrasiya ittifaqıdır. Hətta mən buna bufet ittifaqı deyərdim. Bu mənada həmin ittifaqın da uzun müddət yaşaması mümkün deyil. Çünki yarandığı gündən heç bir perspektivi vəd etmir. O baxımdan düşünürəm ki, Türk ittifaqı deyilən bir ittifaq dünyaya, regiona, bölgəyə çox böyük töhfə verən güc mərkəzi olacaq. Onu da qeyd edim ki, Azərbaycanın iştirakı olmadan nə TDƏŞ, nə də Türk ittifaqı mümkünsüzdür. Azərbaycanın geosiyasi mövqeyi, dünyadakı nüfuzu, apardığı siyasət onu deməyə əsas verir ki, Azərbaycansız bu ittifaqların heç biri mümkün deyil.

Bu gün heç də təsadüfi deyil ki, bütün bu ideyaların hamısının mərkəzində Azərbaycan dayanır. Onu da qeyd edim ki, bu gün artıq dünyada Türkiyə ilə Azərbaycanın bir çox məsələlərdə baxışlarımız, milli maraqlarımız, milli mənafeyimiz üst-üstə düşür. Həmçinin Pakistanla Azərbaycanın və Türkiyənin də bir çox məsələlərdə milli maraqları üst-üstə düşür. Pakistan dövləti dəfələrlə Azərbaycanı açıq şəkildə müdafiə edib və mövqe sərgiləyib. Hətta Qazaxıstan da bu ittifaqda maraqlı ola bilər. Hesab edirəm ki, bütün bunlar sonrakı proseslərin gedişatında mümkün olacaq.

Türkiyə-Azərbaycan media platformasının yaranmasına gəlincə isə deyə bilərəm ki, bu gün hər iki dövlət dünyada müəyyən məqsədli dairələr tərəfindən haqsız olaraq əks təbliğatın, antitəbliğatın və yaxud da təbliğat, mətbuat terrorunun zərərini çəkir. Əlbəttə ki, bu baxımdan biz Türkiyənin, Azərbaycanın bir platformada birləşməsini alqışlayırıq və yüksək dəyərləndiririk. Yəni cəmiyyət, sosium olaraq bu əlaqələr, düşüncələr, psixologiyalar çox yaxındır. Ona görə də həm təbliğat, əks təbliğat baxımından, həm də cəmiyyətimizin inkişafı və yaxınlaşması baxımından sözügedən platforma böyük önəmə malikdir. Düşünürəm ki, bu media platforması da gələcək Türk ittifaqının elementlərindən biridir”.

# Azərbaycanda təhsilin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir

*Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Pərvin Kərimzadənin yap.org.az-a müsahibəsi*



***- Pərvin xanım, sentyabrın 15-də ölkəmizdə yeni tədris ili başlayır. Bu baxımdan, Azərbaycanda təhsilin inkişafı ilə bağlı fikirlərinizi bilmək istərdik...***

- Ümumiyyətlə, Azərbaycanda təhsilin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Ölkəmizdə hər bir sahədə müşahidə olunan dinamik inkişaf təhsil sektorunda da aşkar şəkildə nəzərə çarpır. Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində, eləcə də müvafiq göstərişləri əsasında atılan addımlar, icra edilən Dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişaf meyillərinin meydana çıxmasını, yüksək nəticələrin qazanılmasını şərtləndirir.

Bu gün təhsilin bütün pillələrində - uşaq bağçalarında, məktəbdənkənar müəssisələrdə, orta məktəblərdə, kollecələrdə, peşə təhsilində, ali təhsil sahəsində, ali təhsildən sonrakı təhsil, əlavə təhsil sahəsində yeni layihələrin reallaşdırılması istiqamətində mühüm addımlar atılır. Təhsil sahəsində həyata keçirilən islahatlar - təhsildə infrastrukturun yenilənməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, ümumtəhsil məktəblərinin kadr potensialının və tədrisin keyfiyyətinin yüksəldilməsi xüsusi qeyd edilməlidir. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın qəbulundan illər ərzində ölkəmizdə təhsil sahəsində müsbət dinamika müşahidə olunur.

***- Ölkəmizdə təhsil infrastrukturu quruculuğu da diqqət mərkəzindədir. Bu barədə nə deyə bilərsiniz?***

- Ötən illər ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda qara qızılı insan kapitalına çevirmək prinsipi əsasında islahatlar aparılır, Azərbaycanda təhsilin inkişafına böyük diqqət və qayğı göstərilir. Son illər ölkəmizdə müasir standartlara tam cavab verən, bir-birindən yaraşıqlı, modern məktəb binaları inşa edilir, təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilir, pedaqoji işçilərin maddi-məişət şəraitləri yaxşılaşdırılır.

Bütün ölkənin pandemiya bəlasına qarşı mübarizəyə səfərbər olunduğu bir vaxtda belə təhsil infrastrukturunun inkişafı daim dövlətin və dövlət başçısının diqqət mərkəzində olub.

Bütövlükdə, yeni tədris ilinin əvvəlində Təhsil Nazirliyi tərəfindən təmir-tikinti işləri yekunlaşdırılmış 47 məktəb binası şagirdlərin istifadəsinə veriləcək. Onlardan 8-i yeni tikilən, 5-i əsaslı təmir olunan, 34-ü isə modul tipli məktəbdir. İlin sonuna kimi Təhsil Nazirliyi tərəfindən təmir-tikinti işləri yekunlaşdırılan 100-ə yaxın məktəb binası şagirdlərin istifadəsinə veriləcək, onlardan 60-ı modul tipli məktəbdir.

Ümumiyyətlə, təhsil infrastrukturunun yenilənməsi istiqamətində görülən məqsədyönlü işlər ardıcıl xarakter daşıyır. Son 17 ildə Azərbaycanda dövlətin və Heydər Əliyev Fondunun xətti ilə 3500-dən çox məktəb ya yenidən tikilib, ya da əsaslı təmir edilib. Azərbaycan Prezidentinin müvafiq sərəncamları və tapşırıqları əsasında təhsilin maddi-texniki bazasının böyük dərəcədə yenilənməsi artıq həll olunub, 2020-ci ilin sonuna qədər 98 ümumtəhsil məktəbi - 60-ı modul tipli olmaqla məktəblilərin ixtiyarına veriləcək. Ümumilikdə 2016-cı ildən başlayaraq 293 modul tipli məktəb Azərbaycanda inşa edilib. Bu, innovativ layihədir, çünki bu layihələr Azərbaycanın ən ucqar yerlərində belə məktəb infrastrukturunun yaxşılaşmasını birbaşa nümayiş etdirir. Bu proqram dövlət büdcəsinin xətti ilə icra edilir və bunun tamamlanması, Prezidentin müvafiq tapşırığına müvafiq olaraq, 2021-2022-ci ildə başa çatmalıdır. Bu, analoqu olmayan bir faktdır. Dünyanın heç bir yerində belə qısa vaxt ərzində bu qədər məktəb inşa edilməyib.

***- Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamlı xarakter almasının əhəmiyyəti nədən ibarətdir?***

- Təhsil infrastrukturunun yenilənməsi istiqamətində Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həyata keçirdiyi işləri xüsusi qeyd etmək lazımdır. Ümumiyyətlə, Heydər Əliyev Fondu bir çox sahələrdə səmərəli layihələr həyata keçirməklə yanaşı, təhsilin inkişafı istiqamətində də mühüm təşəbbüslərlə çıxış edib, bu sahədə genişmiqyaslı işlər reallaşdırıb. Bu baxımdan, “Yeniləşən Azərbaycana yeni məktəb” proqramını diqqətə çatdırmaq gərəkdir. 2005-ci ildən icrasına başlanılan “Yeniləşən Azərbaycana yeni məktəb” proqramı çərçivəsində 100 mindən artıq şagirdin təhsil aldığı 600-dək məktəb binası inşa olunub və yenidən qurulub.

Bu məktəblərin hər birində müasir laboratoriyalar, kitabxanalar, yeməkxanalar, ən son avadanlıqla təchiz edilmiş kompüter otaqları, emalatxanalar, idman zalları, geniş meydançalar yaradılıb. Bu proqramda respublikamızın rayon və şəhərlərində yeni məktəb binalarının tikilib istifadəyə verilməsi, təhsil ocaqlarının əsaslı təmiri, maddi-texniki bazasının yaxşılaşdırılması, təhsilin keyfiyyətinin yüksəldilməsi kimi məsələlər öz əksini tapıb və qarşıya qoyulan məqsədlərə müvafiq olaraq həyata keçirilən tədbirlər səmərəli nəticələr verib. Azərbaycanda ali məktəblərin mütləq əksəriyyəti müasir standartlara cavab verir, yeni binalar, korpuslar tikilib, yeni ali məktəblər yaradılıb.

**Hazırda ölkədə yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi üçün dövlət büdcəsi hesabına irimiqyaslı layihələr icra olunur. Yol şəbəkəsinin yenidən qurulması, sözün əsl mənasında, ürək açır. Amma...**





# Bu əməlin adı nədir, səriştəsizlik, yoxsa düşmənçilik?

"Əmma"sı da budur ki, bəzən yolların yenidən qurulması zamanı ya sürücülər, ya da piyadaların, necə deyərlər ayrı-ayrılıqda maraqları nəzərə alınır, hər kəs üçün rahatlıq prinsipləri isə nədənsə unudulur.

Başlayaq yenicə təmirdən çıxmış Məzahir Rüstəmov küçəsinin acınacaqlı vəziyyətindən. Belə ki, yolda aparılan təmir işləri nəticəsində yol daraldılaraq bərbad vəziyyətə salınıb. Yeri gəlmişkən qeyd edək ki, sözügedən ərazi əhalinin sıx məskunlaşdığı yerlərdəndir. Bu isə qəzalara açıq dəvətnamədir! Bu, büdcədən pul mənimsəməyin alternativ variantıdır. Pandemiyanın iqtisadiyyata zərər verdiyi bir zaman kəsiyində bu cür yarıtmaz iş kimə lazımdır? Bu açıq düşmənçilik dövlətə, yoxsa xalqa ünvanlanıb? SİA məsələ ilə əlaqədar hazırladığı reportajı təqdim edir.

Həmin ərazidə yaşayan sakini bildirir ki, mən özüm bu rayonda yaşayıram. Bu yol əvvəllər 4 zolaq-



lı yol idi, lakin yolu daraldaraq 2 zolaqlı hala salıblar. Yolda səkilərin qoyulması isə sürücüləri daha da pis vəziyyətə salıb. Tıxaclar və qəzalar mütəmadi hal alıb. Demək olar ki, hər gün qəza baş verir bu yolda. Aidiyyatı orqanlara dəfələrlə müraciət etsək də, məsələyə baxan yoxdur. Baş verən qəzalar barədə xəbər verib, məsələ ilə maraqlanmalarını tələb etsək də, məsələyə baxan yoxdur.

Telman Əliyev deyir ki, biz həmişə 7 saylı poliklinikaya gəlirik.



Yolu bir tərəfdən digər tərəfə keçmək belə çox təhlükəli hal alıb. Yol o qədər daralıb ki, avtobusların dayanması üçün yer yoxdur. Yolda iki avtobus yanaşı dayandıqda keçməyə, həmçinin avtobuslara sərnişinlərin daxil olması və avtobusdan düşməsi üçün yer qalmır. Səkilərə fikir versəniz görərsiniz ki, burada həqiqətən də hər gün nə qədər qəza baş verir. Bu yol başdan-ayağa təhlükədir.

Xətai sakini Rahib Bayramov



söyləyir ki, bu yolu çəkənlər nəyə xidmət edir? Bu yolda hər gün qəza baş verir. Burada hər axşam baş verən qəzaları öz gözlərimlə müşahidə edirəm.

Rayon sakini bildirir ki, Qaçaq Nəbi 5A ünvanında yaşayıram. Yolların bu hala salınmasından çox narazıyıq. Xüsusən kəsişmələrdə yolu daraltdıqları



üçün sağ zolaqla gedərkən qarşısınıza səki çıxır. Məcbur olub qarşı hərəkət solağına keçirsən. İnzibati Xətalar Məcəlləsində göstərilir ki, yol ayrıcına 5 metr məsafə qaldıqda avtomobil saxlamaq olmaz. Yolun bu hala salınması ilə onlar qaydaları da pozublar, çünki döngələrdə yolu daraldıblar. Bu yolda hər gün qəzalar baş verir. Biz bilmirik bu yolu kim, hansı standartlara uyğun salıb. Xahiş edirik ki, adiyyatı qurumlar tədbir görsünlər.

Ərazidəki taksi sürücüsü isə bildirir ki, hər gün burada qəza baş verir. Yolu genişləndirmək əvəzinə daraltmaq harada görülüb? Bir sürücü kimi çox əziyyət çəkirik. Adiyyatı qurumlardan məsələyə biganə qalmamağı xahiş edirik.

Məsələ ilə əlaqədar SİA-ya açıqlama verən ekspert Ərşad Hüseynov bildirib ki, Bakı şəhərində, xüsusən də Xətai rayonunda bir neçə küçədə belə hərəkətin yenidən təşkil olunması, küçələrin dizaynının dəyişdirilməsi işləri görülüb. İdeyanın əsası piyadaların təhlükəsizliyinin təmin olunmasıdır. Bu üsulla həm də, yolda hərəkət sürəti məcbur endirilir. Amma burada çox ciddi nüanslar var. Yollara bu dizaynların verilməsi sürücülərdə çox böyük narazılıqlara səbəb olub. Xeyli yol-nəqliyyat hadisələri baş verir. Düşünürəm ki, sürücülər də haqlıdırlar. Çünki bu cür yeniliklər edəndə bu yeniliklər üçün ilk növbədə zəmin yaradılmalıdır. İlk növbədə ümumi nəqliyyat ifrastrukturunda ciddi yanaşmalar olmalıdır. Bu cür yeniliyi o ölkələrdə edirlər ki, orada mükəmməl ictimai-nəqliyyat və yüksək yol hərəkəti təhlükəsizliyi mədəniyyəti var. Həmin ölkələrdə yol hərəkəti qaydalarına cəmiyyət özü tam şəkildə riayət edir, zorla yox. Belə ölkələrdə dövlətin avtomobilsizləşdirmək siyasəti var. Lakin biz hələ ora gəlib çatmamışıq. Əvvəla, bizdə ictimai nəqliyyat mükəmməl deyil, həmçinin fər-



di avtomobillərə yüksək ehtiyac var. İkincisi biz yol hərəkəti qaydalarına qismən riayət edirik ki, o da bir çox hallarda cərimə qorxusu ilə olur. Bu bizim ümumi ictimai rəyimizdə formalaşmayıb. Bu cür yol dizaynını o ölkələrdə tətbiq edirlər ki, orada yaşayış ərazisindəki sürəti 40 km/saata endiriblər. Lakin bizdə bu sürət 60 km/saat-dır. Belə şəbəkələşmə isə davamlı olmalıdır. Məsələn, adi bir küçədə 60 km/saat sürətlə hərəkət edən avtomobil anidən dar küçəyə girir və bu zaman qəza halları baş verir. Lakin həmin prospektlər ardıcıl şəbəkələşərsə, eyni zamanda yuxarıda bəhs etdiyim zəmin yaradılarsa, problem yaşanmadan hərəkət təşkil oluna bilər. Vizuallığın olmaması isə ən ciddi problemdir. Hərəkətin təşkilinin bu üsullarını tətbiq edəndə yüksək səviyyədə vizuallıq, yəni görünüş tətbiq olunmalıdır. Bu məsələdə ən əsası isə cəmiyyətin yol hərəkəti qaydalarına düzgün riayət etməsidir. Ona görə də, bu kimi ideyalar xaricdə pozitiv ideya kimi qebul olunsa da, bizdə pozitiv ideya sayılmır.







Ümidvarıq ki, adiyyatı qurumlar tez bir zamanda bütün bu narazılıqlardan nəticə çıxarar və bədbəxt hadisələr baş vermədən yol əvvəlki vəziyyətinə gətirilər. Əks təqdirdə bu yolda hələ çox qəzalara şahid olacağıq. Nəzərə alsaq ki, bu yol kənarında məktəblər də yerləşir və bu təhsil ocaqları fəaliyyətə başladığı andan problem daha da böyüyəcək.

# Paşinyan gəlmə ermənilərdən canlı sipər yaratmaq istəyir

***Əslində ermənilər etiraf etmə-lidirlər ki, manqurtlaşan küçə "demokratı" Nikol Paşinyan hakimiyyətdə olduğu bu iki il ərzində öz sələflərindən də "beş çömsə" artıq erməni xalqını məhvə doğru aparır. Bir də bu gün artıq erməni xalqı yaxşı bilir ki, bu günə kimi ölkəyə ən qatı diktatorlar, oğrular, cinayətkarlar rəhbərlik edib və bunun bədəlini də ən çox xalq çəkir.***



Ancaq görünür, hələ də Ermənistanda diktator "demokrat" cildində ortaya atılıb və aldatdığı daxili auditoriya da həqiqətin gözünə düz baxmaq, etirazlar və küçə nümayişlərindən avantüristcəsinə istifadə edərək, hakimiyyət çevrilişi edərək baş nazir postunu qamarlayanın Nikol Paşinyanın əsl diktator olduğu artıq açıq şəkildə görürlər. Gör vəziyyət nə yerdədirsə, indi erməni cəmiyyətində Nikol Paşinyanla müqayisədə Serj Sarkisyan belə "demokrat" hesab olunur. Halbuki, erməni xalqı onun özünü diktatorluqda ittiham edərək uzaqlaşdırdılar. Həqiqətən də, nəzərə alsaq ki, küçə nümayişçisi Nikolun həyasızlıqları, hakimiyyət iddiaları, xalqı qarşıdurmalara belə sövq etmələri fonunda Serj Sarkisyan geri çəkildisə, deməli, hər şeyi qurban verməyə hazır olan erməni baş nazir ondan da daha mənfur siması ilə Ermənistan tarixində iz qoydu və onun diktatorluqda tayı-bərabəri olmayıb.

Daha doğrusu, Nikol Paşinyanla Ermənistan üçün bir baş ağrısına çevrilib. Xatırladaq ki, istər küçə nümayişləri zamanı, istərsə də hakimiyyəti ələ keçirdiyi ilk günlərdə Paşinyan xalqa saysız hesabsız vədlər versə də, bu günə qədər o vədlərin heç biri reallaşmayıb. Bu adam utanmadan hələ də vədlər verməkdə davam edir və əsassız vədlərinin sayını artırdıqca zərrə qədər utanmır da. Çünki, cismində utanmaq hissi deyilən bir xüsusiyyət yoxdur. Məhz buna görə də dəfələrlə Azərbaycanın dövlət başçısının bütün beynəlxalq tədbirlərdə dönə-dönə tutarlı dərs verməsindən sonra o kresloya əlvida deyərdi. Ancaq həyasızlığın yüz faizi olan Paşinyan utanmaqdan, dərk etməkdən çox-çox uzaqdır. Çünki Ermənistan vətəndaşlarının, bütövlükdə Ermənistanın müflisləşməsi fonunda bu avantüristin ancaq özü və ailəsi çox zənginləşib. İndi Paşinyan utanmadan milyonlarla dəyəri olan saatını reklam etdirir və bununla lovğalanır. Halbuki, bir qol saatına milyonlarla vəsaiti sərf etməyi özünə rəva bilən erməni baş naziri Ermənistanın çörək almağa belə çətinlik çəkən ac vətəndaşlarını vecinə də almır. Yaxud, baş nazirin öz Facebook səhifəsində "məzuniyyətin son saatlarının həzzi" yazan arvadı Anna Akopyan sağa-sola, öz "həzzinə" pullar məsrəf edəndə düşünmür ki, Ermənistan əhalisinin böyük əksəriyyəti aclıq, səfalət içərisində inləyir, həzz almır. Yəni, bu ailə üçün erməni cəmiyyəti zərrə qədər maraqlı deyil. Bunu erməni lobbisi də yaxşı bilir və əbəs yerə deyil ki, Paşinyanın diaspor təşkilatlarına büdcə üçün pul toplamaq çağırışlarının müqabilində bütün dünya erməniləri bir milyondan da az vəsait topladı. Bunu diləndi - desək daha doğru səslənər. Bir sözlə, manqurtlaşan Ermənistanın, diktatorun hakimiyyətinin mahiyyəti çoxdandır nəinki ermənilərin özünə, beynəlxalq aləmə belə tanışdır, bəllidir.

### Paşinyanın növbəti ağılsız addımı - "köçürmə" siyasəti...

Əslinə qalanda, işğalçı Ermənistanın işğal altında saxladığı Azərbaycan ərazilərində qeyri-qanuni məskunlaşdırma siyasəti yeni hal deyil. Belə ki, ATƏT-in Minsk qrupu 2011-ci ildə ərazidə faktaraşdırıcı missiyasını həyata keçirmiş və bu missiyanın yekunu olaraq hazırlanmış hesabatda yer alan məqamlardan biri də ondan ibarətdir ki, işğalçı Ermənistan Azərbaycan ərazilərində qeyri-qanuni məskunlaşdırmanı həyata keçirir. Ermənistan davamlı olaraq Suriyadan, Livandan olan erməni ailələrini Azərbaycanın Dağlıq Qarabağ və ətraf regionlarında yerləşdirmiş, orada onların yaşayışı üçün infrostruktur quruculuğunu həyat keçirmişdir. Bu da ondan xəbər verir ki, işğalçı Ermənistan öz xoşu ilə Azərbaycan torpaqlarını işğaldan azad etmək fikrində deyil. Ermənistan danışıqlar prosesində sadəcə olaraq simvolik xarakterdə iştirak edir. Bununla bərabər qeyd etmək lazımdır ki, Ermənistan davamlı olaraq Azərbaycana qarşı, Azərbaycanın işğal altında saxladığı ərazilərində qeyri-qanuni addımlar atmaqdadır və buna qarşı nə beynəlxalq hüquq müdafiəçiləri, beynəlxalq təşkilatlar, xüsusilə də münaqişənin tənzimlənməsi prosesində vasitəçilik missiyasını həyata keçirən ATƏT-in Minsk qrupu hər hansı bir reaksiya nümayiş etdirmir. Ermənilər daha əvvəl Suriyadan, indi isə Paşinyan Orduya cəlb etməklə hakimiyyətini saxlamaq, qondarma Dağlıq Qarabağ rejiminin müdafiə sistemini möhkəmləndirməyə nail olmaq və Azərbaycana qarşı törətdikləri təxribatlara Azərbaycan tərəfindən tutarlı cavab alan zaman itkilərini gizlətmək məqsədi güdür.

### Tomas Qolts: "İşğal olunmuş ərazilərə qanunsuz köçürmə hərbi cinayətdir"

"Cenevrə konvensiyalarına əsasən, dinc sakinlərin döyüş zonalarına, həmçinin işğal olunmuş ərazilərə köçürülməsi hərbi cinayətdir". Amerikalı ekspert, jurnalist, ADA Universitetinin fəxri doktoru Tomas Qolts Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz məskunlaşdırma siyasəti barədə sualı cavablandırarkən qeyd edib ki, bu cür addımlar beynəlxalq məsuliyyətə yol açır.

Sosial şəbəkələrdə Livandan olan ailənin Azərbaycan xalqı üçün tarixi və mənəvi əhəmiyyətə malik Şuşa şəhərində yerləşdirilməsinə dair məlumatlar göstərir ki, Ermənistan regionun demoqrafik quruluşunu dəyişmək planlarını da sürətlə həyata keçirir. İşğal olunmuş ərazilərdə yerləşdirilən insanlar isə faktiki, Nikol Paşinyan hakimiyyətinin avantürist siyasətinin qurbanına çevrilir.

Ermənistanın apardığı qanunsuz məskunlaşdırma siyasəti artıq açıq müstəviyə keçib. Bir neçə müddətdir ki, işğal altında olan Azərbaycan ərazilərinə Suriya və Livandan erməni mənşəli insanlar gətirilir. Bir müddət öncə separatçı rejim rəhbərləri 100-150 Livan ermənisini qəbul etməyə hazır olduqları bəyanatı ilə çıxış etmişdilər. Azərbaycan da daxil olmaqla dünya ölkələri Livanda baş verən faciənin nəticələrinin aradan qaldırılması, sözügedən ölkəyə humanitar yardım göstərilməsi ilə məşğul olarkən Paşinyan iqtidarının bu faciədən özünün çirkin məqsədləri naminə sui-istifadə etməsi təəssüf doğurur. Ona görə də beynəlxalq təşkilatlar, xüsusilə də, ATƏT-in Minsk qrupu qanunsuz məskunlaşdırma siyasətinə ciddi reaksiya verməli və İrəvanın növbəti təxribatçı addımlarını sərt şəkildə qınamalıdır.

### Prezident İlham Əliyev: "Biz buna imkan verməyəcəyik, bunu hər kəs bilsin"

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev Mingəçevirdəki N saylı hərbi hissədə çıxışı zamanı bildirmişdi ki, biz bütün beynəlxalq təşkilatlarda bu məsələni qaldırırıq və qaldıracağıq: "Qanunsuz məskunlaşmaya son qoyulmalıdır. Beynəlxalq ictimaiyyəti buna çağırırıq. Minsk qrupunun həmsədrlərinin bu məsələyə xüsusi diqqət yetirməyini istəyirik ki, bu qanunsuz məskunlaşma dayansın. Çünki Ermənistanın siyasəti bundan ibarətdir.



Onlar bizim şəhərlərin adlarını dəyişdiriblər. Əvvəlcə indiki Ermənistan ərazisində, indi isə Dağlıq Qarabağda və ətraf bölgələrdə. Orada yeni dırnaqarası sərhədlər çəkiblər, bizim tarixi keçmişimizi, məscidlərimizi məhv ediblər, tarixi abidələrimizi, torpaqlarımızı erməniləşdirmək istəyirlər. İndi qanunsuz məskunlaşma aparmaq istəyirlər, ancaq onlarda insan resursu olmadığı üçün çətinlik çəkirlər. Amma yenə də diaspor fəaliyyəti nəticəsində buna çalışırlar. Biz buna imkan verməyəcəyik, bunu hər kəs bilsin".

Azərbaycan tərəfi qanunsuz məskunlaşdırma siyasətinin 1949-cu ildə qəbul edilən Cenevrə Konvensiyası və onun əlavə Protokollarına zidd olduğunu xatırladır. Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin sözlərinə görə, 1946-cı ildə Əsas Hərbi Cinayətkarların məhkəməsi işində Nürnberq Beynəlxalq Hərbi Tribunalı müttəhimlərin ikisini işğal olunmuş ərazilərin etnik tərkibinin dəyişdirilməsinə görə təqsirli olduğu barədə qərar vermişdi: "Beynəlxalq hüquqa əsasən, işğalçı dövlət tərəfindən işğal olunmuş ərazilərdə məskunlaşma siyasətinin aparılması müharibə cinayəti kimi tövsif edilməlidir. Bu baxımdan Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində apardığı qeyri-qanuni məskunlaşma müharibə cinayətidir".

Bu azmış kimi, son günlər Ermənistan separatçı rejimin dili ilə digər ərazilərimizi də işğal edəcəyinə dair ritorikanı artırır və Azərbaycanı Gəncə şəhərini raket atəşinə tutacaqları ilə hədələyir. Nikol Paşinyanın və müdafiə nazirinin təxribatçı bəyanatları, eləcə də bu qəbildən olan digər addımlar isə bir daha göstərir ki, Ermənistan rəhbərliyinin məqsədi danışıqlar prosesini tamamilə məhv etmək və işğal olunmuş Azərbaycan ərazilərinin ilhaqına nail olmaqdan ibarətdir.

Bir sözlə, ən əsası isə, Paşinyanın daxili problemlərdən canını qurtarmaq üçün savaşı başlatmaq niyyətidir. Belə vəziyyətdə Paşinyan həm müxalifətdən, həm də cəmiyyətdə artan natrazılıqdan yaxa qurtarıb bütün diqqətin cəbhəyə yönələcəyinə ümid edir. Amma bu zaman onun dəqiq hesablaya bilmədiyi məqam Azərbaycan ordusu tərəfindən alacağı sərt zərbənin hakimiyyətini daha çox laxladacağıdır. İndilikdə görünən budur ki, Ermənistanın daxilində gedən proseslər Paşinyan iqtidarını müharibə etməyə, hansısa təxribatlar törətməyə vadar edir. Əks təqdirdə, əlavə gərginlik regionda hərbi-siyasi vəziyyəti daha da kəskinləşdirəcək. Bunun bütün məsuliyyəti isə işğalçı Ermənistan və onun avantürist baş nazirinin üzərinə düşəcək. Çünki rejim, faktiki, hakimiyyəti hər hansısa formada saxlamağa çalışır. Amma qeyd olunduğu kimi, bu, İrəvana çox baha başa gələ bilər.

Ona görə də beynəlxalq birlik, xüsusilə ATƏT-in Minsk qrupunun həmsədrləri Ermənistanın bu cinayətlərinə münasibət bildirməlidir. Həmsədrlərin seyrçi mövqedə olması işğalçı ölkəni bu kimi qeyri-konstruktiv əməllərə sövq edir. Əgər ATƏT-in Minsk Qrupunun həmsədrləri bu qanunsuzluğa tam olaraq göz yumsa və ona bu və ya digər formada münasibət bildirməsə, o zaman onlar münaqişənin sülh yolu ilə həllinə vasitəçi olmaq hüququnu birdəfəlik itirəcəklər.

Baş verənlər onu deməyə əsas verir ki, rəsmi Bakının səbri tükənib və güclü Azərbaycan Ordusu və rəşadətli əsgərlərimiz tezliklə işğal altındakı torpaqlarımızda hərbi əməliyyatlara start verəcək. Qarşı tərəf məğlub, məyus və tükənmiş halda rəsmi Bakının diktəsinə boyun əyəcək!

### Prezident İlham Əliyev: "Qarabağ və onun tərkib hissəsi olan Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi"

Prezident İlham Əliyev münaqişənin həlli ilə bağlı bütün çıxışlarında dəfələrlə bildirib ki, bu yolun həlli ancaq və ancaq ölkəmizin ərazi bütövlüyünün bərpasıdır: "Münaqişəyə gəldikdə, bunun həllinin bir yolu var, o da ölkəmizin ərazi bütövlüyünün bərpasıdır. Başqa yol yoxdur. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Mən bu yaxınlarda demişəm, biz güc toplayırıq, daha da güclü olmalıyıq və olacağıq. Eyni zamanda, geosiyasi vəziyyət elə olmalıdır ki, bizim bütün arzularımız uğurla nəticələnsin. Mən demişəm ki, Qarabağ Azərbaycandır və bir daha bunu təkrarlamaq istəyirəm: Qarabağ və onun tərkib hissəsi olan Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi. Bütün Azərbaycan ictimaiyyəti, xalqımız bu mövqeyi dəstəkləyir. Mənim apardığım siyasəti, o cümlədən bu məsələ ilə bağlı apardığım siyasəti dəstəkləyir".

Beləliklə, bu günə kimi, Paşinyan öz sərsəm əməl və inadkarlığı ilə Ermənistanı Azərbaycanın gücü qaşısında ağır məğlubiyyətə doğru sürükləməkdədir. Nə qədər ki, Ermənistan Azərbayanın işğal altındakı torpaqlarını azad etməyəcək, bir o qədər ağır iqtisadi, siyasi mərhumiyyətlərə, məşəqqətlərə düçar olacaq.

***A.SƏMƏDOVA***

# Məşhur Məmmədov: “İqtisadi Şuranın yaradılması ölkə iqtisadiyyatının tərəqqisi üçün böyük əhəmiyyətə malikdir”

***“Məlum olduğu kimi, Prezident İlham Əliyev “Azərbaycan Respublikasında iqtisadi siyasətin və iqtisadi islahatların yeni idarəetmə çərçivəsinin yaradılması və “Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurasının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 iyul tarixli Fərmanının ləğv edilməsi barədə” Fərman imzalayıb.***



Fərmanla 4 il əvvəl yaradılmış Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurası ləğv edilib, əvəzində yeni struktur - Azərbaycan Respublikasının İqtisadi Şurası yaradılıb”. Bu fikirləri Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü olan deputatı Məşhur Məmmədov İqtisadi Şuranın yaradılması zərurətinin haradan qaynaqlandığını, ölkə iqtisadiyyatının post-pandemiya dövründə daha sürətli inkişafını təmin edəcəyi ilə bağlı “SƏS” qəzetinə açıqlamasında bildirib.

M.Məmmədov deyib ki, geniş səlahiyyətlər verilən Maliyyə Sabitliyi Şurasının əsas missiyası makro-iqtisadi və maliyyə sabitliyinin qorunub saxlanmasına nail olmaq idi: “Dövrün, zamanın tələblərinə uyğun təkmilləşmə, atılan addımlar qarşıya qoyulan hədəflərə yüksək səviyyədə nail olmaqla yeni məqsədlərin gündəmə gətirilməsi ilə uzlaşır. Əgər müqayisəli təhlil aparsaq, görərəik ki, ölkə Prezidentinin bu Fərmanı ilə 4 il əvvəl yaradılmış Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurası ləğv edilib, əvəzində iqtisadiyyatın yeni modeli - Azərbaycan Respublikasının İqtisadi Şurası yaradılıb. Getdikcə makroiqtisadi göstəricilərin yaxşılaşmağa doğru getməsi və milli valyutanın kursunun sabitləşməsi bu addımın effektivliyini göstərdi. Hazırda ölkənin maliyyə bazarı sabitləşib və belə demək mümkünsə, Maliyyə Sabitliyi Şurasının qarşısına qoyulmuş məqsədlərə nail olunub. Bu gün isə hazırkı əlverişsiz qlobal mühitdə son illər ərzində əldə edilmiş sosial-iqtisadi rifah səviyyəsinin aşağı düşməsinə imkan verməmək və postpandemiya dövründə iqtisadiyyatın artım tempini yüksəltmək, qlobal böhran və pandemiya şəraitində milli iqtisadi inkişaf qarşısında duran strateji çağırışlara adekvat cavab vermək, yeni iqtisadi artım və inkişaf modelinə uğurlu keçidi təmin etmək zərurəti yaranıb. Bütün bunları nəzərə dövlət başçımız cənab İlham Əliyev hər zaman olduğu kimi, uzaqgörən qərar qəbul edərək İqtisadi Şuranı yaratdı və qurumun qarşısında mühüm tələblər qoydu. Qeyd edim ki, yeni yaranan şuranın qarşısında qoyulan qlobal məqsədlər daha dayanıqlı iqtisadi artım mənbələrinin yaradılması, xüsusilə özəl investisiyaların, o cümlədən birbaşa xarici investisiyaların cəlbi və qeyri-neft ixracının genişləndirilməsinə əsaslanan milli inkişaf prioritetlərinin müəyyən edilməsidir. İqtisadi Şura ölkədə makroiqtisadi sabitliyin qorunması və sosial-iqtisadi inkişafın sürətləndirilməsi məqsədilə qlobal və milli iqtisadiyyatda baş verən proseslərin öyrənilməsi, ölkə iqtisadiyyatında yarana biləcək daxili və xarici təsirlərin qarşısının alınmasına yönəlmiş qabaqlayıcı tədbirlərin görülməsi üçün təkliflərini hazırlayıb Prezidentə təqdim etməlidir. Şura postpandemiya dövründə ölkənin milli inkişaf prioritetlərini özündə əks etdirən sosial-iqtisadi inkişaf strategiyasının formalaşdırılmasına, səmərəli tənzimləmə və hüquq tətbiqetmə praktikasına nail olmalıdır”.

Millət vəkili həmçinin 2020-ci ildə dünyanın hər yerini cənginə alan pandemiyanın iqtisadi sağlamlığa vurduğu zərərin də qaçılmaz olduğunu deyərək vurğulayıb ki, belə ki, qlobal olaraq maliyyə sabitliyinin kövrəkliyinin artması, iqtisadi artım tempinin aşağı düşməsi, sosial iqtisadi rifahın azalması, iqtisadiyyatda dəyişkənliyin ortaya çıxması İqtisadi Şuranın yaradılmasını zəruri hala gətirdi. Şuranın qarşısında müəyyənləşdirilmiş hədəflərin mövcud olduğunu deyən M.Məmmədov bildirdi ki, hədəf və maraq milli iqtisadiyyatın yeni bir çərçivədə inkişaf modelini qurmaqdır: “Sözsüz ki, burada atılacaq addımlar çox önəmlidir. İqtisadi Şuranın həyata keçirəcəyi planlar milli iqtisadiyyatın tez-tez dəyişə bilən qlobal və yerli risklərə qarşı həssaslığının azaldılmasında, milli iqtisadi sabitliyin təmin edilməsində, müasir iqtisadi strategiyaların hazırlanmasında xüsusi fayda verməlidir. İqtisadi Şuranın əsas fəaliyyət istiqamətləri dayanıqlı iqtisadi artım mənbələrini formalaşdırmaq, özəl investisiyaları cəlb etmək, qeyri-neft sektorunun inkişafını artırmaq və müxtəlif sahələr üzrə birbaşa xarici yatırımların diversifikasiyasını tənzimləmək olmalıdır. Həmçinin, İqtisadi Şuranın yaradılması islahatlara sistemli şəkildə yanaşma baxımından çox vacibdir”.

Millət vəkili Prezident İlham Əliyevin şura qarşısında mühüm vəzifələr və tələblər qoyduğunu da bildirərək urğulayıb ki, ləğv edilən Maliyyə Sabitliyi Şurası ilə müqayisədə İqtisadi Şuranın səlahiyyətləri və imkanları böyükdür. Yəni şuranın qərar qəbuletməyə təsiri və prosesləri koordinasiya etməyə imkanları daha genişdir: “Belə ki, əgər Maliyyə Sabitliyi Şurası daha çox maliyyə sektorundakı proseslər üzrə səlahiyyətlərə malik idisə, yeni şura iqtisadiyyatın bütün sahələri üzrə dərinləşdirilmiş strategiyaların, idarəetmə çərçivələrinin hazırlanması, iqtisadi, siyasi, sosial sferalarda təşəbbüslərin göstərilməsi, eyni zamanda, biznes mühitinin, investisiya mühitinin fərmanda da qeyd olunduğu kimi, radikal yaxşılaşdırılması, yeni təşfiq mexanizmlərinin hazırlanması, on ildə iqtisadiyyatın iki dəfə böyüdülməsi kimi vəzifələri yerinə yetirməlidir. Şuranın hazırlayacağı və ölkə Prezidentinə təqdim ediləcəyi təkliflər sözsüz ki, ölkəmizdə aparılan iqtisadi siyasətin yeni strateji istiqamətlərini və çərçivəsini müəyyən edəcəkdir. Bu, olduqca mühüm bir məsələdir. İqtisadi Şuranın çevik fəaliyyəti ölkəmizin hərtərəfli, dinamik inkişafının təmin edilməsində böyük rol oynaya bilər”.

M.Məmmədov sentyabrın 10-da Azərbaycan Respublikasının Baş Naziri, İqtisadi Şuranın sədri Əli Əsədovun sədrliyi ilə qurumun ilk iclasında da bu məsələyə toxunulduğunu bildirərək qeyd edib ki, İqtisadi Şura yeni bir platforma olaraq dünya və milli iqtisadiyyat üçün mürəkkəb bir dövrdə ən çətin tapşırıqları kollegial şəkildə müzakirə etmək, ortaq məxrəcə gəlmək üçün əlverişli institutdur. Şuranın qarşıya qoyulmuş tapşırıqları yerinə yetirmək üçün bütün təşkilati, iqtisadi və maliyyə imkanları var.

Millət vəkilinin sözlərinə görə, Ölkə Prezidentinin tapşırığına əsasən, İqtisadi Şura iqtisadi siyasətin çərçivələrinə dair proqram hazırlamalıdır: “Dövlət investisiyalarına paralel olaraq özəl yerli və xarici investisiyaların cəlbi yeni dövr iqtisadi siyasətin əsas istiqaməti olmalı, özəl sektorun aparıcı rolu təmin edilməli, investisiya mühitinin yaxşılaşdırılması üçün ciddi və radikal addımlar atılmalıdır. Və qeyd olunan vəzifələrin icrasını təmin etmək məqsədilə Prezidentin fərmanında İqtisadi Şuraya iqtisadiyyatın bütün sahələrində, o cümlədən fiskal, monetar və maliyyə-bank sahələrində, real sektorda, özəl investisiyaların təşviq edilməsində, dövlət müəssisələrinin fəaliyyətinin tənzimlənməsində, sosial müdafiə sisteminin səmərəliliyinin artırılmasında, səhiyyə və təhsilin inkişafında dünyada mövcud olan uğurlu modellər əsasında təkliflər hazırlanması tapşırılıb. Şura fərmanda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi məqsədilə yerli və xarici ekspertləri, beynəlxalq təşkilatları və elmi müəssisələri cəlb edə bilər. Bir sözlə, milli iqtisadi inkişaf qarşısında duran strateji çağırışlara adekvat cavabın verilməsini təmin etmək məqsədilə Cənab İlham Əliyev qarşıya yeni vəzifələr qoyub və bu, əlbəttə ki, ölkə iqtisadiyyatının tərəqqisi və gələcəyi üçün böyük əhəmiyyətə malikdir”.

Millət vəkili, həmçinin bildirib ki, İqtisadi Şuranın qarşısına qoyulan məqsədlər Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin qarşısında da qanunvericilik baxımından yeni çağırışlar müəyyən edir: “Hesab edirik ki, müasir qanunların qəbulu, mövcud qanunvericilik aktlarında çevik mexanizmlərin yaradılması aparılan iqtisadi islahatların daha çox mənimsənilməsinə imkan yaradacaq, ölkəmizin iqtisadi hədəflərinə çatmaqda mühüm alət olacaq, postpandemiya dövrünün hədəfləri real həyatda öz əksini tapacaq, əlbəttə ki, bu ölkə iqtisadiyyatının tərəqqisi və gələcəyi üçün böyük əhəmiyyətə malik olacaqdır”.

***RƏFİQƏ KAMALQIZI***

# Bahar Muradova: “Ermənistan törətdiyi cinayətlərin sırasına yenilərini əlavə etməkdədir”

“Ermənistanın qonşuluğunda olan ölkələrin ərazisinin, tarixi-mədəni irsinin mənimsənilməsinə yönəlmiş qəsbkar siyasətinin növbəti bariz nümunəsi Livandan erməni ailələrinin Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ ərazisinə köçürülməsidir. Süni şəkildə qarabağda demoqrafik vəziyyəti dəyişməklə status kvonu qorumaq, işğalın nəticələrini qəbul etdirmək üçün yerli və köçürülən erməniləri “yeni ərazilər uğrunda yeni müharibə”doktrinasının girovu kimi istifadə etmək sələflərinin “yolunu” davam etdirən Paşinyan iqtidarının faşist ideologiyasına əsaslanan təcavüzkar siyasətindən qaynaqlanır”. SİA-nın verdiyi məlumata görə, bu fikirləri Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, YAP İdarə Heyətinin üzvü Bahar Muradova deyib.



Bahar Muradova bildirib ki, müxtəlif səbəblərdən ev-eşiyini itirmiş insanların həyatını (hətta onlar erməni olsalar belə) alver predmetinə çevirmək, yeri gəldikdə onları çeşidli yollarla öz siyasi və iqtisadi maraqları naminə qurban verməkdən belə çəkinməyən Ermənistan bununla indiyədək insanlıq və bəşəriyyət əleyhinə törətdiyi cinayətlərin sırasına yenilərini də əlavə etməkdədir. Bu bir həqiqətdir ki, tarix və zaman hər şeyi olduğu kimi dəyərləndirir və belə cinayətlər cəzasız qalmır.

“Amma hər birimizin getdikcə daha aydın dərk etdiyimiz bir həqiqət də var ki, Azərbaycan xalqı və dövləti bu kimi beynəlxalq cinayətlərə qarşı daha dözüm və səbr göstərmək niyyətində deyildir. Hakimiyyətə gəlmək üçün xanımı Anna Akopyanla birlikdə əyninə geyindikləri “sülh göyərcinləri” libasını hərbi formaya dəyişərək Azərbaycan ərazisində Kalaşnikov avtomatı ilə əzələ nümayiş etirməklə sülh prosesini birdəfəlik basdıran Paşinyan nəinki sələfləri ilə, eləcə də beynəlxalq hüququ ayaqlar altına alaraq onunla bir sırada dayanmağı seçənlərlə birlikdə bu törətdiklərinə görə cavab verəcəklər”, - deyə, Bahar Muradova vurğulayıb.

# “Həmsədrlərin yeganə işi münaqişəni dondurmaqdan ibarətdir”



“Ermənistanın işğal olunmuş ərazilərimizdə qeyri-qanuni məskunlaşdırma siyasəti aparması bir növ ATƏT-in Minsk Qrupu həmsədrlərinin düzgün işləməməsinin və hadisələrə biganə yanaşmasının göstəricisidir”. Bunu SİA-ya millət vəkili Asim Mollazadə deyib.

Deputatın sözlərinə görə, ATƏT-in Minsk Qrupu həmsədrlərinin yeganə işi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini dondurmaqdan ibarətdir: “Biz bu məsələni Avropa Şurasının müvafiq komitələrindən qaldırmışıq. Eləcə də Azərbaycan Milli Məclisinin Beynəlxalq münasibətlər komitəsi bu məsələ ilə bağlı bütün beynəlxalq təşkilatlara və bir sıra ölkələrin parlamentlərinə müraciət edərək onları məlumatlandırıb. Ermənistanın işğal olunmuş ərazilərimizdə qeyri-qanuni məskunlaşdırma siyasəti çox kobud surətdə beynəlxalq hüquq normalarını pozmaq deməkdir. Bu kimi məsələlərin qarşısının alınması üçün Azərbaycanın ilk növbədə beynəlxalq təşkilatların dəstəyini qazanmalıdır”.

# ATƏT-in Minsk Qrupu həmsədrləri bəyanat yayıb



ATƏT-in Minsk Qrupu həmsədrləri (Rusiya Federasiyasından İqor Popov, Fransadan Stefan Viskonti və ABŞ-dan Endrü Şofer) Parisdə məsləhətləşmələr aparıblar. AZƏRTAC ATƏT-in saytına istinadən məlumat verir ki, görüşdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik də iştirak edib.

Həmsədrlər bu il iyulun ortalarında Ermənistan-Azərbaycan sərhədində baş verən son hadisələrə xüsusi diqqət yetirərək bölgədəki vəziyyəti nəzərdən keçiriblər. Onlar tərəflərin mesajlarını və narahatlıqlarını diqqətlə nəzərdən keçirərək qiymətləndiriblər. Həmsədrlər A.Kaspşik tərəfindən döyüş mövqelərindəki vəziyyət barədə məlumat alıb və monitorinqi bərpa etmək üçün etdiyi hərəkətləri alqışlayıblar. Minsk qrupunun yaydığı bəyanatda deyilir ki, həmsədrlər ATƏT-dəki mandatlarına uyğun olaraq münaqişənin dinc və hərtərəfli nizamlanmasına dair danışıqlara fəal və hərtərəfli kömək etməyə davam edirlər.



# Bakının işğaldan azad edilməsindən 102 il keçir

**Bu gün 15 sentyabr Bakının işğaldan azad olunmasından 102 il keçir. Tarixin bu gününün yazılmasında Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusunun xüsusi rolu olub. 1918-ci il sentyabrın 15-də Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu Bakıya daxil olaraq, şəhəri erməni-bolşevik işğalından azad edir.**

Bu ordu Bakının azad edilməsində böyük şücaətlər göstərib və aparılan hərbi əməliyyatlar zamanı Osmanlı ordusu 1130 şəhid verib.Tarixə nəzər salsaq, görərik ki, 1918-ci il mayın sonlarında Zaqafqaziya Seymi dağılmış, mayın 28-də Azərbaycan müstəqilliyini elan etmişdi. Həmin vaxt Azərbaycan Demokratik Respublikasını (ADR) tanıyan ilk dövlət Türkiyə oldu. O zaman Bakı işğal altında olduğundan, milli hökumətin müvəqqəti olaraq Gəncədə fəaliyyətə başlaması barədə qərar qəbul edildi. Milli hökumətin ixtiyarında cəmi 600 nəfərlik hərbi qüvvənin olması Gəncəni işğalçılardan azad etməyə imkan vermirdi. Belə bir ağır vəziyyətdə Azərbaycan milli hökumətinin kömək istəyə biləcəyi yeganə dövlət Türkiyə idi və belə bir kömək üçün qardaş dövlətə müraciət edildi. 1918-ci il mayın sonunda Türkiyənin hərbi naziri və Ali Baş Komandan müavini Ənvər Paşa bu xahişləri nəzərə alaraq öz qardaşı Nuru Paşaya rəhbəri olduğu hərbi hissələrlə birlikdə Təbriz ətrafından Gəncəyə doğru hərəkət etmək barədə əmr verdi.

Mayın 28-dən əvvəl türk ordu hissələrinin Gəncəyə girməsi Azərbaycan hökumətinin şəhərə daxil olması üçün zəmin yaratdı. Tarixi mənbələrdə göstərilir ki, müvəqqəti olaraq Gəncədə yerləşən milli hökumətin qarşısında duran başlıca məqsəd isə paytaxt Bakını işğalçılardan azad etmək idi. Diqqətə çatdıraq ki, 1918-ci il iyunun 4-də Azərbaycan hökuməti ilə Osmanlı dövləti arasında "Qarşılıqlı yardım və dostluq haqqında müqavilə-imzalanmışdı. Həmin müqavilənin 4-cü bəndinə əsasən, Osmanlı hökuməti ehtiyac olacağı halda, Azərbaycana hərbi yardım göstərməyi öhdəsinə götürmüşdü.

Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusunun Bakıya doğru irəliləməsi Azərbaycan paytaxtına göz dikən yadelli qüvvələrə rahatlıq vermirdi. Bu ordunun tərkibini Osmanlı və Azərbaycan türkləri təşkil edirdi. O dövrə aid tarixi mənbələrin məlumatına görə, Bakı işğaldan azad edilənədək, şəhər bir neçə dəfə yadelli qüvvələr tərəfindən əldən-ələ keçmişdi. 1918-ci ilin iyulunda Bakıda Xalq Komissarları Soveti iflasa uğradı. Bu, həmin hökumət idi ki, onun vaxtında Bakı və ətraf ərazilərdə ermənilər tərəfindən Azərbaycan türklərinə qarşı ağılasığmaz soyqırım-siyasəti həyata keçirilmişdi. 1918-ci ilin iyulundan Qafqaz İslam Ordusu, artıq Bakının azad edilməsi istiqamətində hərəkətə keçmişdi. 1918-ci il sentyabrın 15-də Bakı işğalçılardan azad edildi. Şəhər uğrunda döyüşlər heç də asan getmədi. Bu döyüşlərdə mindən artıq türk əsgəri və zabiti ilə yanaşı, yerli əhali 5 mindən artıq şəhid verdi. Müsəlman Şərqinin ilk müstəqil dövlətinin ərazi bütövlüyünü təmin etmək məqsədilə yaradılan Qafqaz İslam Ordusu 2500 km yol qət edərək, mübarizəyə qoşuldu və məqsədinə nail oldu. Bakı bolşeviklərdən və erməni daşnaklarından azad edildi.

Qardaş Türkiyənin hərbi dəstəyilə Bakının azad edilməsi Azərbaycan tarixinə daha bir zəfər gününün yazılması deməkdir. Bakının azad edilməsinin böyük əhəmiyyəti vardı. Çünki Azərbaycanı Bakısız təsəvvür etmək olmazdı. Milli hökumətin Bakıya köçməsilə Şimali Azərbaycan bütövləşdi. Tarixçilərin fikrincə, əgər 1918-ci ilin sentyabrında Bakı azad edilməsəydi, bu şəhərin indi Azərbaycanın paytaxtı olması sual altında qalardı. Axı bolşeviklər Bakını Azərbaycandan ayıraraq, onu muxtar şəhərə çevirməyi planlaşdımışdılar. Bir sözlə, Bakının xilası, onun milli şəhər simasının bərpa edilməsi Azərbaycan adlı dövlətin əbədi varlığına hesablanmış tarixi zəfər idi.

71 illik sovet hakimiyyəti dövründə bu hadisənin yanlış kontekstdə izah olunmasına baxmayaraq, Azərbaycan xalqı türk əsgərinin qəhrəmanlığını unutmadı, onu qəlbində yaşatdı. Azərbaycan yenidən müstəqillik qazandıqdan sonra hər il sentyabrın 15-də təkcə Bakıda deyil, Şamaxıda, Göyçayda və digər rayonlarda ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan türk əsgərlərinin məzarları dövlət səviyyəsində ziyarət olunur. Aradan uzun illər keçməsinə baxmayaraq, Qafqaz İslam Ordusu tərəfindən göstərilən qardaşlıq köməyi heç vaxt unudulmayacaq, Azərbaycan xalqı tərəfindən daim minnətdarlıq hissi ilə xatırlanacaq.

Azərbaycan və türk əsgərlərinin Bakını düşmən işğalından azad edərək, tariximizə yazdıqları bu şərəfli gün həm də Türkiyə- Azərbaycan qardaşlıq münasibətlərinin bariz bir nümunəsidir. Qeyd edək ki, Türkiyə Azərbaycanın dövlət müstəqilliyini ilk tanıyan, kifayət qədər çətin və mürəkkəb şəraitdə belə bir qərar qəbul edən ölkə olmuşdur. İki dost ölkə arasında strateji müttəfiqlik münasibətləri ötən müddətdə ən yüksək pilləyə yüksəlmiş, əbədi və dönməz xarakter almışdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Ermənistan hakimiyyəti bölgədə yekəbaşlıq etməkdə israrlıdır"

***"Ermənistan Azərbaycanla danışıqların dayandırılmadığı bir vaxtda təxribatlarını davam etdirir. İndi də Livandan erməni əhalinin köçürülməsi ilə məşğuldurlar. Ermənistan hakimiyyəti özlərinə arxayın şəkildə bölgədə yekəbaşlıq etməkdə israrlıdır. Həmsədr dövlətlər isə üzərlərində məsuliyyətin olmasına baxmayaraq, susmaqda davam edirlər". Bunu SİA-ya politoloq Zaur Məmmədov deyib.***

"ABŞ niyə sakitdir? - İlk baxışdan belə görünür ki, Vaşinqtondakı hakimiyyətin başı öz daxili işlərinə, seçkilərə qarışıb. İranla və Rusiya ilə həmsərhəd olan regionun ABŞ üçün kifayət qədər önəmli olduğunu nəzərə alsaq, deməli, Vaşinqton burada olanlardan xəbərdardır. Hər şey nəzarət altındadır. Susmaq isə, ABŞ-ın gələcək müharibə ilə bağlı yeni hədəflərinə uyğundur. Bölgədə müharibənin başlaması, İranın şimalı və Rusiyanın cənubununda müharibə Vaşinqton üçün "bir güllə ilə iki dovşan vurmaq" olacaq.

Fransa - Fransa həmsədr dövlətləri içində münaqişə tərəflərinə ən az təsir imkanlarına malik olan dövlətdir. Parisin başı indi Aralıq dənizi və Yaxın Şərqdə baş verənlərə qarışıb. Dünyanın ayrı - ayrı güclər tərəfindən bölüşdürüldüyü bir zamanda, Parisə ayrılacaq pay başqa regionlardadır. Fransa Cənubi Qafqaz və Mərkəzi Asiyadakı proseslərə qarışmayacaq.

Rusiya - münaqişə ilə bağlı həmişə olduğu kimi ən çox bəyənat verən, proseslərə müdaxilə edən və iştirak edən tərəfdir. Tovuz hadisələrində Rusiyanın Ermənistana verdiyi dəstək göz qabağındadır. Lakin, Moskva üçün çəkindirici bir qüvvə var - Türkiyə. Əgər Türkiyə olmasaydı, indi Rusiya çoxdan Belarusiya, Qazaxıstandan sonra Cənubi Qafqazı da öz iqtisadi- siyasi - hərbi blokuna qatardı. (2021 -2025 -ci illərdə Belarusiya və Qazaxıstanın Rusiyaya inteqrasiyası surətləndiriləcək).



Uzun sözün qısası, vəziyyət ciddidir. Düşündüyümüzdən də, ciddi. Geosiyasi güclər arasında bazarlıqlar, "erməni məsələsi" adı altında 100 il əvvəl olduğu kimi planetar güclərin öz maraqlarını reallaşdırmalarının şahidi ola bilərik. Bizim qarşımızda o düşməndir ki, böyüklərin əlaltıları olmalarına öyrəşiblər"-deyə, politoloq fikrini tamamalayıb.

***Ceyhun Rasimoğlu***

# <u>Oqtay Hacımusalı:</u> "Türkiyə -Azərbaycan media platformasının yaradılması Türk dünyasının gələcəyini qarantiya altına alır"

***Türkiyədə yaşayan azərbaycanlı jurnalist, Türkiyə Jurnalistlər Birliyi Ankara şöbəsinin başqanı, "Gazeteanka" xəbər portalının baş redaktoru Oktay Hacımusalıya görə, Türkiyə Azərbaycan ortaq media platformasının yaradılması Türk dünyasının gələcəyini qarantiya altına alır. O, bu fikirlərini SİA-ya açıqlamasında deyib.***



Jurnalistin sözlərinə görə, son günlərdə Türkiyə ilə Azərbaycan arasında yaradılması müzakirə olunan Media Platforması zamanın tələbindən irəli gəlir. Tarixdə hər zaman sevincli və kədərlı günlərində bir - birinin yanılnda olan Türkiyənin və Azərbaycanın media sahəsində ortaq hərəkət etmələrinin, düşmənə vahid media məkanında cavab vermələrinin, mövcud həssas geosiyasi vəziyyətə dair ortaq strateji yol xəritəsinə uyğun taktika müəyyənləşdirmələrinin bu dövrdə artıq olmazsa olmazlardan olduğunu vurğulayan O.Hacımusalı fikirlərini bu cür əsaslandırıb: "Son dönəmlərdə baş verən Tovuz istiqamətində gedən döyüşlərdə Türkiyənin açıq aşkar Azərbycanın haqlı mövqeyini dəstəkləməsi, Azərbaycan Prezident İlham Əliyevin bu günlərdə Yunanıstanın Azərbaycana yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nikolas Piperiqkosu qəbul edərkən Türkiyəyə dəstək nümayiş etdirməsi, bütün bu faktların hamısı onu göstərir ki, artıq regionda Türkiyə və Azərbaycanln vahid mövqedən çıxış etmə yönündə əməkdaşlıqları intensivləşib.

Bugünlərdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Türkiyəyə səfər etməsi və qardaş ölkənin media strategiyasını müəyyən edən aparıcı şəxslələ və ölkənin əsas media qurumlarının rəhbərləri ilə görüşlər keçiuməsi bu əməli addımın atılmağa başlanmasının əsas göstəricilərindəndir. Görünən odur ki, yaradılacaq ortaq media platformasında media sahəsində ən müxtəlif layihələr həyata keçiriləcək".

"Həyata keçiriləcək layihələrin şübhəsiz ki, millətimizin, geniş mənada Türk dünyasının gələcəyi baxımından olduqca böyük önəm kəsb edəcəyindən əminəm", deyən azərbaycanlı jurnalist son olaraq bildirib ki, medianın keçdiyimiz iyirmi ildə necə sürətli bir yol qət etdiyinin hər birimiz şahidi olduq: "Bu yöndən də dəyərləndiyimiz zaman Türkiyə və Azərbaycanın yaradacağı media platformasının önəmi bir daha diqqəti özünə cəlb edir. Qardaş Türkiyə Cümhuriyyətində yaşayan və fəaliyyət göstərən, Azərbaycan mediasında, xüsusən də beynəlxalq təcrübəyə malik bir jurnalist kimi mən də bu platformanın fəaliyyətində aktiv şəkildə iştirak etməyə hazıram. Çünki fərqindəyəm ki, bu platforma iki qardaş ölkənin, eyni zamanda Türk dünyasının gələcəyinə önəmli qatqılarda bulunacaq. Yaşasın Azərbaycan Türkiyə qardaşlığı, yaşasın Türk dünyası!"

***Rövşən RƏSULOV***

# Manqurtlaşan Ermənistan və diktatorun hakimiyyəti

***Ermənilər etiraf etməlidirlər və əslində, ağlı başında olan az bir qismi də dəhşət və kədər hissi ilə etiraf edir ki, dırnaqarası inqilab olan, reallıqda isə dövlət çevrilişi edilən doğma ölkələrində vəziyyət Avropanın ən axırıncı diktatoru tərəfindən idarə olunan Belarusiyadan heç də yaxşı deyil.***



Bu ölkələr arasında yeganə fərq var və bunu elə bir kəsim erməni də yaxşı bilir ki, əgər sözügedən ölkədə xalq diktator saydığından canını qurtarmaq üçün çabalayırsa, Ermənistanda diktator demokrat cildində ortaya atılıb və aldatdığı daxili auditoriya da həqiqətin gözünə düz baxmaq, etirazlar və küçə nümayişlərindən avantüristcəsinə istifadə edərək, hakimiyyət çevrilişi edərək baş nazir postunu qamarlayanın əsl diktator olduğuna hələ də inanmaq istəmir. Əslində isə, bu bir həqiqətdir ki, Ermənistanın baş naziri repressiyalarla, həbslərlə, təqiblərlə və digər üsullarla rəqib saydıqlarını, əmrlərinə müntəzir olmayanları, əvvəlki hakimiyyətlə işləyənləri, ümumiyyətlə, onunla eyni fikirdə belə olmayanları təhdidləri ilə boğaza yığıb. Bu isə onun diktator olduğuna inanmaq istəməyənlərin də istək və arzularını ürəklərində qoyur və inanmaq məcburiyyətində qalırlar.

Manqurtlaşma, göründüyü kimi, bir çox xalq və ölkələr üçün tanış bir fenomendir. Xüsusilə, "rus qardaş"ın təsiri altında olanlar üçün bu daha nəzərəçarpacaq dərəcədədir. Bunlara xüsusilə, ukraynalılar, belaruslar və ermənilər aiddir. Bunu ermənilər arzulamasa da, istəməsə də, etirafdan çəkinsələr də bu belədir. İndi isə bu hərəkətin son, yekun mərhələsini Belarusiyada baş verənlərin timsalında görürük. Uzun müddət özünü "millətin atası" kimi göstərən, sonda öz qurtuluşu üçün ölkənin suverenliyi də daxil olmaqla hər şeyi hərraca çıxarmağa hazır olan, hakimiyyət sevgisi ilə yaşayan zalım obrazı, siması ortaya çıxdı. Lukashenko sadəcə olaraq, xalqını eşitmək belə istəmir. Ancaq digər tərəfdən, dörddə bir əsr müddətində bəlli oldu ki, onun Avropanın son diktatoru adlandırılması boş yerə deyildi!

Budur, Ermənistanın halı, oradakı vəziyyət sadalananlardan üstün, yaxud da yaxşı deyil. Müxalifətə və müstəqil medianın qalıqlarına təzyiq sadəcə ağlasığmaz və misilsizdir bu ölkədə. Heç bir zaman olmayan şəkildə təzyiqlə qarşılaşıb Ermənistan və ermənilər. Gör vəziyyət nə yerdədirsə, Nikol Paşinyanla müqayisədə Serj Sarkisyan belə demokrat hesab olunur indi erməni cəmiyyətində. Halbuki, onun özünü diktatorluqda ittiham edərək uzaqlaşdırdılar. Həqiqətən də, nəzərə alsaq ki, küçə nümayişçisi Nikolun həyasızlıqları, hakimiyyət iddiaları, xalqı qarşıdurmalara belə sövq etmələri fonunda Serj Sarkisyan geri çəkildisə, deməli, hər şeyi qurban verməyə hazır olan erməni baş nazir ondan da daha mənfur siması ilə Ermənistan tarixində iz qoydu və onun diktatorluqda tayı-bərabəri olmayıb.

Nikol Paşinyanla bağlı erməni tarixinə hər istiqamətdə uğursuzluqları da əlavə etdikdə görürük ki, o Ermənistan üçün bir baş ağrısına çevrildib. Xatırladaq ki, istər küçə nümayişləri zamanı, istərsə də hakimiyyəti ələ keçirdiyi ilk günlərdə Paşinyan xalqa saysız hesabsız vədlər versə də, bu günə qədər o vədlərin heç biri reallaşmayıb. Bu adam utanmadan hələ də vədlər verməkdə davam edir və əsassız vədlərinin sayını artırdıqca zərrə qədər utanmır da. Görünür, utanmaq hissindən elə əvvəldən məhrum imiş. Əgər məhrum olmasaydı, ən azından Amulsar mədəni, bu mədənin bağlanması, fəaliyyətinin dayandırılması ilə bağlı küçə nümayişləri zamanı dövlətdən tələblərini unutmazdı. Unutmasaydı, yaxud utansaydı indi baş nazir kreslosunu ələ keçirdikdən sonra erməni toplumunun eyni tələbini hesaba almadan Amulsarın istismarının davam etdirilməsinə çalışmazdı. Hazırda Amulsarın istismarının dayandırılması ilə bağlı saysız-hesabsız etiraz aksiyalarına məhəl qoymayan Paşinyan ən azından bu istiqamətdə vədini yerinə yetirməmiş olur. Belə olan halda, yəni ən adi qərarı belə vermək səlahiyyətlərinin olması fonunda bu vədinə də xilaf çıxdığı halda ondan başqa vədlərini gözləyən ermənilər yanıldıqlarını dərk etməlidirlər və edirlər. Küçə nümayişləri zamanı polisi xalqın xidmətçisi adlandıran beli çantalı nümayişçinin dövlət çevrilişi ilə səlahiyyətləri əlində cəmləndirdikdən sonra polisin köməyi ilə xalqı əzməsindən sonra isə ondan demokratiya, söz azadlığı, ali dəyərləri nəzərə alacağını gözləmək sadəlövhlükdən də ziyadə, axmaqlıq olar. Bu axmaqlığı qəbul edən ermənilərlə yanaşı indi onun yalançı, avantürist və manipulyator olduğunu etiraf edən erməni kəsimi də var.

Buna da diqqət etmək lazımdır ki, Ermənistan vətəndaşlarının, bütövlükdə Ermənistanın müflisləşməsi fonunda bu avantüristin ancaq özü və ailəsi çox zənginləşib. İndi Paşinyan utanmadan milyonlarla dəyəri olan saatını reklam etdirir və bununla lovğalanır. Halbuki, bir qol saatına milyonlarla vəsaiti sərf etməyi özünə rəva bilən erməni baş naziri Ermənistanın çörək almağa belə çətinlik çəkən ac vətəndaşlarını vecinə də almır. Yaxud, baş nazirin öz Facebook səhifəsində "məzuniyyətin son saatlarının həzzi" yazan arvadı Anna Akopyan sağa-sola, öz "həzzinə" pullar məsrəf edəndə düşünmür ki, Ermənistan əhalisinin böyük əksəriyyəti aclıq, səfalət içərisində inləyir, həzz almır. Yəni, bu ailə üçün erməni cəmiyyəti zərrə qədər maraqlı deyil. Bunu erməni lobbisi də yaxşı bilir və əbəs yerə deyil ki, Paşinyanın diaspor təşkilatlarına büdcə üçün pul toplamaq çağırışlarının müqabilində bütün dünya ermənilləri bir milyondan da az vəsait topladı. Bunu toplamadı desək daha doğru səslənər. Çünki, əgər erməni baş nazirinin bu çağırışına, yaxud elə onun özünə məhəl qoyulsaydı bütün dünya üzrə deyil, dünyanın cəmi bir ölkəsindəki ermənilər bundan da çox vəsait göndərərdilər. Deməli, Ermənistanın öz daxilindəki vətəndaşlarından tutmuş, diaspor təşkilatlarına, dünyaya səpələnən bütün ermənilərə qədər erməni cəmiyyəti artıq onun kimliyini yaxşı tanıyır və o hesaba alınmır.

İndi bir az ağlı başında olan ən sıravi erməni belə yaxşı başa düşür ki, demokratiya komuflyajı altında çox hiyləgər bir avantürist Ermənistan adlı ölkəni də, erməni cəmiyyətini də barmağına dolayıb və diktatorun yekəsi də elə onun özüdür. Elə başa düşdükləri üçün də narazılıqları, ona qarşı ermənilərin qəzəbi də artır və biri-birini əvəz edən, ardıcıl olaraq keçirilən etiraz aksiyaları bütün bunları, bu qəzəbi təsdiq edir. Əslində, vətəndaşlar öz qəzəbini ifadə edirlər və bu barədə haqlıdırlar. Çünki son 2 ildə Nikolun bütün hoqqabazlıqlarını onlar öz gözləri ilə gördülər. Sonuncu dəfə Paşinyan öz ölkəsinin iqtisadi inkişafını utanmadan söyləməsinə iqtisadçı ekspertlər açıq şəkildə kəskin reaksiya verir və tənqid edirlər. Bildirirlər ki, belə səfalət içərisində olan Ermənistanda nəinki iqtisadi göstəricilərindən, heç iqtisadiyyatından da danışmaq mümkün deyil.

Təsəvvür edəndə ki, Ermənistan deyilən bir ölkə heç bir qlobal layihəyə qoşulmayıb, ərazilərindən faydalı qazıntılar hasil edilmir, heç bir iqtisadi fəaliyyətdən, iqtisadi əlaqələrdən, ticarətdən, emaldan, ümumiyyətlə büdcə gəlirlərindən söhbət belə gedə bilməz, bu zaman Paşinyanın dediklərinə, vədlərinə bizim gülməyimiz gəldiyi kimi ermənilərin də ağlamağı gəlməlidir. Çünki, bu adam, yəni küçədən gələn erməni baş nazir öz fəaliyyəti ilə rəhbərlik etdiyi dövlətin sonuna çıxır. Ən yaxın zamanda Ermənistanın tamamilə çökməsində şəxsən Paşinyanın da əvəzsiz xidmətləri var. Bu adam manqurtcasına ölkəsinin iflasını, məhvini yaxınlaşdırır və bu onun vecinə də deyil. Hətta Ermənistana məxsus bəzi mətbuat səhifələrində "o manqurtdur" deyə açıq-aşkar bildirilir. Yalanlarla və vədlərlə ələ keçirilmiş hakimiyyətini qorumaq üçün öz ölkəsinə hər cür xəyanətə hazır olan birini manqurt adlandırmaqda hər kəs haqlıdır. Ermənistan mediasında Paşinyanın hətta Lukaşenkodan da daha böyük Rusiyapərəst olmağa hazır olduğu qeyd və etiraf olunur. Etiraf olunur ki, ancaq daha faciəli olan, uzun müddətdir manqurt klanının nümayəndələri də aktivdirlər. Bir sözlə, manqurtlaşan Ermənistanın, diktatorun hakimiyyətinin mahiyyəti çoxdandır nəinki ermənilərin özünə, beynəlxalq aləmə belə tanışdır, bəllidir.

***İnam Hacıyev***



## Ermənistanda məhkəmə sistemi siyasi maraqlar naminə çökdürülür

### Siyasi partiyalar və ictimai rəy konstitusiya məhkəməsinin ləğv olunaraq məhkəmələrin vahid sistemdə birləşməsinə qarşıdırlar

Ermənistanda mövcud olan çoxsaylı narazılıqlar faktoru, xalqın hakimiyyətdən əlini üzməsi reallığı hakim Paşinyan rejiminin iflası prosesinə təkan verir. Bu arada, növbəti narazılıq məhkəmələrin siyasiləşdirilməsi, daha dəqiqi isə, bu sistemin hakimiyyətin əllinə keçirilməsi ilə bağlıdır. Konstitusiya məhkəməsinin hakimlərinin fəaliyyətlərinin dayandırılmasının ardınca, indi də həmin məhkəmənin kassasiya məhkəməsi ilə birləşdirilməklə ali məhkəməyə çevrilməsi ideyası daha bir siyasi böhrana yol açıb.

### Vəkil Yervand Varosyan: "Konstitusiya məhkəməsi ətrafında yaradılan süni böhran da deyilənləri təsdiq edir"

"Ermənistan hakimiyyətinin bu qərarı birmənalı olaraq siyasi hədəflərə və maraqlara söykənir. Məqsəd, konstitusiya məhkəməsini institut kimi ləğv etməkdən ibarətdir". SİA xəbər verir ki, bu barədə tert.am-a tanınmış erməni vəkili və hüquqşünası Yervand Varosyan deyib. Onun fikrincə, hakimiyyət vahid orqan yaratmaqla həmin orqana nəzarətlərini rahatlaşdırmaq niyyətini güdürlər. Çünki iki ayrı-ayrı məhkəmə sistemini nəzarətdə saxlamaq çətindir. SİTAT: "Burada danılmaz məntiq dayanır və konstitusiya məhkəməsi ətrafında yaradılan süni böhran da deyilənləri təsdiq edir".

Erməni hüquqşünasının sözlərinə görə, elə adamlar var ki, nəyin baş verdiyini anlayır və həmin adamlar bu gün də susmurlar, öz səslərini qaldırırlar.

### Hüquq müdafiəçisi: "Hakimiyyət öz addımlarını bu cür davam edərsə, ölkənin hüquq institutları sistemi məhv olacaq"

"Biz baş verənləri geniş kütləyə çatdırmalıyıq və bildirməliyik ki, mövcud idarəçilik bizlərə necə təsir göstərir", Varosyan deyib və bildirib ki, əslində konstitusiya məhkəməsi tamamilə fərqli funksiyaları ilə seçilən institutdur: "Kassasiya məhkəməsi isə başqa fəaliyyət sistemidir və hazırkı dövrə qədər onlar bir arada bir-birlərini tamamlamaqla işləyirdilər".

Onun sözlərinə görə, heç bir hüquq sistemi bu prosesə hazır deyil və hakimiyyət öz addımlarını bu cür davam edərsə, ölkənin hüquq institutları sistemi məhv olacaq. Belə ki, Ermənistanın hüquqi sistemi heç vaxt qəbul etdiyi qərarlarına hazır ola bilməyəcək. "İllər ötəcək və konstitusiya məhkəməsi yenidən bərpa ediləcək", erməni hüquq müdafiəçisi bildirib.

### "Çiçəklənən Ermənistan" və "Maarifçi Ermənistan" partiyaları etiraz edirlər

Qeyd edək ki, artıq ölkənin siyasi partiyaları da öz etiraz səslərini ucaldırlar. "Çiçəklənən Ermənistan" partiyasının parlament təmsilçisi Naira Zoqrabyan bildirib ki, hələlik ləğv olunmamış konstitusiya məhkəməsinin sədri kimi Nikol Paşinyana yaxınlığı ilə seçilən Edqar Şatiryanın namizədliyi irəli sürülüb. Məhz o sədr seçildikdən sonra konstitusiya məhkəməsi qısa müddətdə ləğv edilərək, kassasiya məhkəməsi ilə birləşdirilib, vahid məhkəmə kimi fəaliyyət göstərəcək. E.Şatiryan isə həmin məhkəmənin sədri olacaq. Məhz bu istiqamətdən çıxış edən Naira Zoqrabyan etiraz səslərini ucaldacaqlarını bəyan edib.

Digər müxalifət partiyası - "Maarifçi Ermənistan" partiyasının deputatı Tiqran Simonyan da eyni fikri bölüşərək deyib ki, qanunsuz proses davam edir və onun partiyası həmin prosesdə iştirak etməyəcək.

# Pandemiya ilə mübarizədə vətəndaş məsuliyyəti

***Koronavirus pandemiyası hələ də davam edir və bu gözə görünməyən bəladan xilas olmaq və ya daha az yoluxmanın, eləcə də insan təlafatının olmaması üçün dövlət başçısı tərəfindən cox ciddi addımlar atılıb, dünya ictimaiyyətinin də diqqətin çəkən tədbirlər reallaşdırılıb. Təbii ki, tədbirlərin daha effektli olması üçün vətəndaş məsuliyyəti də başlıca şərtdir və bu, mütləqdir. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyeva bütün görüşlərdə və çıxışlarında bütün vətəndaşları böyük məsuliyyətə və nizam-intizama çağıraraq bildiriblər ki, vətəndaşlarımız karantin rejiminin qaydalarına məsuliyyətlə əməl etməlidirlər. Və Azərbaycan vətəndaşları bilirlər ki, bu məhdudiyyətlərin əsas səbəbi insanları qorumaqdır.***

Prezident Ilham Əliyev:
**"Mənim üçün birmənalı qaydada tərəddüdsüz insanların sağlamlığı həmişə birinci yerdə olub"**



Prezident onu da deyib ki, "Koronavirus pandemiyası başlayandan bu günə qədər Azərbaycan dövləti çox böyük məsuliyyət göstərib, ilk növbədə, ölkə daxilində. Çünki iki seçim var idi - ya iqtisadiyyatı xilas etmək, ya da insanların sağlamlığını. Şəxsən mənim üçün birmənalı qaydada tərəddüdsüz insanların sağlamlığı həmişə birinci yerdə olubdur, o cümlədən pandemiya dövründə. Ona görə biz şüurlu şəkildə, bunun iqtisadi fəallığımıza mənfi təsir göstərəcəyini bilərək məhdudlaşdırıcı addımlara getdik".

Bəs ölkə vətəndaşları necə? Öz üzərinə düşən məsuliyyəti dərk edirmi? Birmənalı şəkildə başa düşülməlidir ki, mübarizə üsullarında vətəndaşların da üzərinə ciddi vəzifələr düşür. Bütövlükdə cəmiyyətin gələcəyi baxımından bu, mühüm faktordur. Məsələ ondan ibarətdir ki, istənilən ölkənin iqtidarı həyata keçirdiyi tədbirlərdə o zaman daha çox uğur qazanır ki, ona cəmiyyətdən dəstək gəlsin və vətəndaşlar həyata keçirilən tədbirləri anlayışla qarşılasınlar. Bu da vətəndaş məsuliyyəti məsələsinin yeni pandemiya mərhələsində daha da aktuallaşması anlamına gəlir. Bir sıra hallarda bu məqamı hətta intellektual təbəqə də lazımi dərəcədə qiymətləndirə bilmir. Və ya qərəzli dairələr ondan süni istifadə etməyə çalışır. İnsan azadlığı anlayışını özbaşınalıq kimi, qaydalara əməl etməməyi isə sərbəstlik kimi təqdim etməyə baş vururlar, həmişə başqasını ittiham etməklə öz məsuliyyətini gizlətməyə çalışırlar. Bu cür cəhdlərin bütövlükdə cəmiyyət üçün nə dərəcədə təhlükəli olduğunu başa düşmək çətin deyildir.

Məsələn, polisin nəzakətlə insanlara məsafə saxlamaq və maska taxmaqla bağlı tələbinə "başqa yerdə belə qadağalar yoxdur" kimi münasibət göstərmək şəxsi məsuliyyəti dərk etməmək deməkdir. Çünki polis və ya hər hansı başqa rəsmi orqan pandemiyada tələbləri vətəndaşın sağlamlığı üçün edir. Əgər insan yaranmış vəziyyəti bu cür qiymətləndirə bilmirsə, onun vətəndaş kimi sosial həyatda üzərinə düşən məsuliyyəti tam anlaya bilmədiyi nəticəsini çıxarmaq olar. Deməli, xüsusilə pandemiya ilə mübarizənin ikinci mərhələsində vətəndaş məsuliyyəti faktoru daha çox önəm kəsb edir. Vətəndaşlar tələb olunan tibbi şərtlərə nə qədər çox əməl etsələr, müəyyən olunmuş məhdudiyyətlər çərçivəsində hərəkət etsələr, bir o qədər ümumi nəticə müsbət olar və növbəti mərhələyə keçid sürətlənər. Karantin rejiminin yumşaldılmasında dövlət qurumları ilə yanaşı, hər bir vətəndaşın, istehlakçının mövqeyi və davranışı çox önəmlidir. Əgər qaydalara əməl olunmayacaqsa, pandemiyanın yayılması arta bilər və nəticədə yenidən sərt karantin tədbirlərinin tətbiq edilməsinə gətirib çıxara bilər. Odur ki, hər birimiz qaydalara və meyarlara əməl etməklə karantin müddətinin qısaldılmasına və yoluxma saylarının azalmasına nail ola bilərik.

## Vətəndaşlar sosial məsuliyyət hissini artırmalı, özlərini qorumaqla yanaşı, ətrafdakıların da qayğısına qalmalıdırlar

Ölkə Prezidenti keçirilən bütün videoformatlı müşavirə və görüşlərində bildirir ki, koronavirusa qarşı mübarizədə vətəndaşlar sosial məsuliyyət hissini artırmalı, özlərini qorumaqla yanaşı, ətrafdakıların da qayğısına qalmalıdırlar. Koronavirus pandemiyasına qarşı mübarizədə qaydalara düzgün əməl olunması günümüzün ən vacib tələblərdən olmalıdır. Çünki sosial məsuliyyət hiss etmədən də əldə olunan nailiyyətə çatmaq olmaz. Xüsusi ilə, fəaliyyətinə icazə verilən iaşə obyektlərinin rəhbər şəxsləri karantin rejimi qaydalarına riayət edilməsinə birbaşa diqqət yetirməli, bu sahədə məsuliyyət hissini artırmalıdırlar: "Eyni zamanda, ictimai işlərlə, ictimai nəqliyyatla məşğul olan qurumlar da bu işləri tam məsuliyyətlə görməlidirlər, tam dezinfeksiya aparılmalıdır ki, yoluxma hallarının sayı çox olmasın. Əlbəttə ki, hazırda bizim sərhədlərimiz bağlıdır. Ancaq yükdaşımalar üçün heç bir ölkə öz sərhədini bağlamayıb. Ona görə yükdaşımalar istiqamətində bizim işlər davam etdiriləcək. Əminəm ki, dövlətimiz və xalqımız bu sınaqdan da üzüağ çıxacaq".

Doğurdan da, bugünkü məqamda ən önəmli məsələlərdən biri də sosial məsuliyyət məsələsidir. Sirr deyil indiki situasiya təkcə dövlət orqanları qarşısında deyil, hər bir vətəndaş qarşısında ciddi məsuliyyət müəyyənləşdirir. Hamı başa düşməlidir ki, sosial yönündən asılı olmayaraq atılan müvəqqəti və məcburi addımların cəmiyyətin sağlamlığı, təhlükəli virusun neqativ təsirlərindən maksimum dərəcədə qorunmaq üçündür.

## "Əgər kimsə xalqımıza, dövlətimizə düşmənçilik edirsə, onun bir adı var - düşmən. Hər kəs bunları belə də çağırmalıdır"

Lakin bütün bu uğurları görə bilməyən xalqa düşmən qüvvələr isə həmişə olduğu kimi, bu dəfə də koronavirusdan yararlanmağa başlayıb. Dövlət başçısı koronavirus başlayandan radikal müxalifətin çirkin niyyətinə aydınlıq gətirərək, onları xalqa düşmən qüvvə adlandıraraq koronavirusdan yararlandıqlarını, "göydəndüşmə bir hədiyyə" olduğunu da deyib: "Bu düşərgədə cəmləşən insanlar uzun illərdir iqtidara qarşı yox, dövlətimizə, xalqımıza qarşı çirkin mübarizə aparırlar. Onların əsas məqsədi vəziyyəti gərginləşdirməkdir. Ölkəmiz üçün, xalqımız üçün nə qədər pisdirsə, onlar üçün o qədər yaxşıdır. Onların fəaliyyətinin tarixi də bunu göstərir. Biz bu tarixi yaddan çıxarmamışıq...Koronavirus bunlar üçün sanki, göydəndüşmə bir hədiyyədir. Bu gün koronavirusa sevinən ancaq bu antimilli qruplaşmadır".

Bir sözlə, dövlət başçısının koronavirusla bağlı ardıcıl addımların atılmasında məqsəd Azərbaycan xalqının sağlamlığı olduğunu bildirib: "Bizim bu sahədə görülən işlərə ən gözəl qiyməti Azərbaycan xalqı verir. Bir daha demək istəyirəm ki, mən minlərlə elektron məktub alıram. Bu məktublarda görülən işlərə görə minnətdarlıq ifadə olunur. Ümumdünya Səhiyyə Təşkilatı bizim gördüyümüz işlərə yüksək qiymət verərək Azərbaycanı koronavirusla mübarizə sahəsində nümunəvi ölkə adlandırıbdır. Bütün bunlar deməyə əsas verir ki, biz bu bəlanı da dəf edəcəyik, bu mübarizədə qalib gələcəyik. Biz xalq olaraq artıq birlik, həmrəylik nümayiş etdirmişik, indi daha çox məsuliyyət və nizam-intizam nümayiş etdirməliyik. Belə olan halda biz bu ağır vəziyyətdən az itkilərlə və şərəflə çıxacağıq".

Bir sözlə, bütün dünyanın göstərdiyi təcrübə ondan ibarətdir ki, koronavirusla mübarizə ilə bağlı dövlət siyasəti yalnız o halda müsbət nəticə verir ki, dövlətin həyata keçirdiyi siyasət hər bir vətəndaşın sosial məsuliyyətini dərk etməsi ilə tamamlanmış olsun. Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan vətəndaşları yüksək sosial məsuliyyət nümayiş etdirir. Etiraf etmək lazımdır ki, koronavirusla mübarizə çərçivəsində vətəndaşlardan tələb olunan sosial məsuliyyət o qədər də böyük əziyyət tələb etmir. Bu, tibbi maskalardan istifadə etmək, sosial məsafə saxlamaq, gigiyenik qaydalara əməl etməkdən ibarətdir. Bunların verəcəyi fayda hər bir insan üçün, bütövlükdə cəmiyyət üçün əhəmiyyətlidir. Hər bir vətəndaşın sosial məsuliyyətinin artırılmasına ehtiyac var. Vətəndaşlar ətrafındakı insanlara bu çağırışı etməli, sosial məsuliyyətə əməl etməklə yanaşı digər insanlara da bunu təşviq etməli, insanları sosial məsuliyyətli olmağa çağırmalıyıq. Bu işləri görmək bizim vətəndaş kimi vəzifələrimizdən biridir.

***RƏFİQƏ KAMALQIZI***

## "Köçürmə siyasəti ilə ermənilər işğal etdikləri əraziləri qanunilələşdirmək istəyirlər"



"Son günlər ermənilərin növbəti həyasızlığının şahidi olmaqdayıq. 30 ilə yaxındı Azərbaycan torpaqlarını qeyri-qanuni işğalda saxlayan Ermənistan cəzasız qaldıqca, daha da azğınlaşaraq öz işğalçılıq siyasətini müxtəlif təxribatlara əl atmaqla davam etdirir. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov deyib.

İctimai Birliyin sədri vurğulayıb ki, xüsusilə, demokratiya adı altında hakimiyyətə gələn Paşinyan hökuməti öz səriştəsizliyini ört basdır etmək üçün Qarabağ ətrafında spekulyasiya etməklə məşğuldur.

"Danışıqlar prosesinə zərbə vuran bəyanatlardan tutmuş, Tovuz təxribatı, Qarabağda qanunsuz seçki, Şuşada inauqurasiya mərasimi, arvadı Annanın hərbi təlim şousu və s. təxribat xarakterli hərəkətlər intensiv xarakter almaqdadlr. İndi də növbəti həyasızlığa başlayaraq Livan ərazisindən ermənileri köçürərək qanunsuz olaraq Qarabağ torpaqlarında məçkunlaşdırmağa başlamalarıdır. Bununla da onlar danışıqlar prosesinə, BMT qətnamələrinə, ATƏT-in Minsk qrupuna, Beynəlxalq qanunlara məhəl qoymadıqlarını bir daha bəyan edirlər. Lakin Azərbaycam dövlətinin etirazlarından başqa dünya miqyasında heç bir qurumun səsi eşidilmir. Sanki görmürlər, kordular, kardılar nəhayət laldılar. Amma Azərbaycana böhtan atılanda Beynəlxalq qurumların hayqırtısı susmaq bilmir. 200 ildir Çar Rusiyasının himayəsi ilə Qafqaza köçürülən ermənilər bu məskunlaşma ilə Rusiyanın və Qərbin dəstəyilə Azərbaycan torpaqlarında dövlətlərini qurdular. Bundan ruhlanaraq SSRİ-nin dağılma prosesindən məharətlə istifadə edib 20% torpaqlarımızı da işğal etdilər. Başımızın altına yastıq qoyan dünyanın aparıcı dövlət və qurumlarının sayəsində bir qərinəyə yaxındı torpaqlarımızda at oynadan ermənilər indi bu köçürmə siyasəti ilə işğal etdikləri əraziləri qanunilәşdirməyə səy göstərirlər. Əslində, havadarlarının siyasətidir bu. Sözdə bizə ərazi bütövlüyünüzü dəstəkləyirik, Qarabağ Azərbaycana məxsusdur deyilsə də, pərdə arxası ayrı oyun oynayırlar. Torpaq sizindir amma münaqişə danışıq yolu ilə həll edilməlidir deyən dünya gücləri əslində, zamanı uzatmaqla erməniyə xidmət edirlər. Danışıq yolu çoxdan öz təsirini itirib, artıq erməni bildiyini edir . Qarabağda tikinti gedir, yollar çəkilir, xarici şirkətlər sərmayə qoyur və s . Açıq-aşkar beynəlxalq güclər erməni himayə edir. Bir yol qalır bizim üçün, o da müharibə. Eyni zamanda,Türkiyə ilə hərbi strateji müttəfiqliyi inkişaf etdirmək və erməni həyasızlığına son qoymaq. Güclü ordu, xalq birliyi, Ali Baş Komandan ətrafında birləşmək və son ana qədər savaşmaq. Dünya bizə öz ədalətsizliyi ilə başqa seçim qoymamışdır artıq...", deyə Anar Xəlilov bildirib.

***İnam Hacıyev***

## "200 baldan yuxarı nəticə göstərən hər bir şəxs ali məktəbə daxil ola bilər"



Birinci qrupda 200 baldan yuxarı nəticə göstərən hər bir şəxs ali məktəbə daxil ola bilər. SİA-nın məlumatına görə, bunu Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə deyib.

Onun sözlərinə görə, bu il 1-ci qrup üzrə 14 924 plan yeri var. 200 baldan yuxarı nəticə göstərən imtahan iştirakçıları 10 343-dür: "Bu, o deməkdir ki, 200 baldan yuxarı nəticə göstərən hər bir şəxs ali məktəbə daxil ola bilər. Əsas odur ki, onlar ixtisasları düzgün seçsinlər". M.Abbaszadə qeyd edib ki, bu il üçün 44 766 nəfər ixtisas seçminə buraxılıb, onlardan 23 300-ü artıq öz seçimini edib.

# "FACEBOOK" virusları...

***Bu gün Azərbaycanda internet resurslarından istifadə azaddır və bu amil həm də bir aksiomadır. Yəni istər facebook, istər twitter, istərsə də digər sosial şəbəkələrdə on minlərlə istifadəçilərimiz mövcuddur. Ancaq gəlin görək, həmin istifadəçilərin hər birini normal, insani dəyərlərdən uzaq olmayan tərbiyəvi əhəmiyyətdən, cəmiyyətə mənfi təsir etməyən statuslar yazır, qruplar yaradır, fikirlər bölüşdürürlər? Təəssüf ki, bu, belə deyil. Çünki bir çox hallarda ifrat təhqirlər və xalqımızın milli-mənəvi dəyərlərinə aid olmayan statuslara da rast gəlinir. Bu acınacaqlı faktor isə, təbii ki, gələcək nəsillərə ötürülmə təhlükəsini yaşadır. Bəs bunun baş verməməsi üçün nə etmək, hansı tədbirlər görmək olar?***



Hazırda sosial şəbəkələrdə azadlıqdan sui-istifadə hallarına rast gəlinir və sosial şəbəkələrdə insanların şəxsiyyətini təhqir edənlərin qarşısı alınmalıdır. Necə deyərlər, elə zənn edirlər ki, "babam mənə kor deyib, gəlib-gedəni vur deyib"də olduğu kimi nə istəsələr, edə bilərlər. Ancaq hələ ki, onların istəkləri elə istək olaraq qalıb. Göründüyü kimi, artıq Azərbaycan Orduxan Bəbirov, Qurban Məmmədov, Tural Sadıqlı və digərlərini İnterpol xəttilə axtarışa verib. Azərbaycan Respublikasının vətəndaşı 1980-ci il təvəllüdlü İsayev Elvin İltixam oğlu Ukrayna miqrasiya qanunvericiliyinin tələblərini pozduğuna görə 12 dekabr 2019-cu il tarixdə Azərbaycana deportasiya olunub və Baş Prokurorluğun İstintaq idarəsində istintaq edilən cinayət işi üzrə barəsində Nəsimi rayon məhkəməsinin 22 avqust 2019-cu il tarixli qərarı əsasında seçilmiş həbs qətimkan tədbirinin icrası ilə əlaqədar 2019-cu il dekabrın 14-də Penitensiar xidmətin 1 saylı istintaq təcridxanasına yerləşdirilib. Baş Prokurorluğun Mətbuat Xidmətinin bildirdiyinə görə, Azərbaycan Respublikası ərazisində kütləvi iğtişaşlara və dövlət əleyhinə yönələn açıq çağırışlar etməsi faktları üzrə 15 avqust 2019-cu il tarixdə Azərbaycan Respublikasının Baş Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işi üzrə təqsirləndirilən şəxs Elvin İsayevin müdafiə hüququ cinayət-prosessual qanunvericiliyin tələblərinə müvafiq qaydada tam təmin edilib. İstintaqla müəyyən edilib ki, Elvin İsayev 2018-ci ilin əvvəllərində Azərbaycan Respublikasının vətəndaşları olmaqla hazırda Avropanın müxtəlif ölkələrində müvəqqəti məskunlaşmış Orduxan Bəbirov, Qurban Məmmədov, Orxan Ağayev, Rəfael Piriyev, Əli Həsənəliyev, Tural Sadıqlı, Süleyman Süleymanlı və şəxsiyyətləri istintaqa məlum olmayan digər şəxslərlə qabaqcadan əlbir olan bir qrup şəxs halında birləşərək Azərbaycan Respublikasını tərk etdikdən sonra, müvəqqəti məskunlaşdığı Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində özünə məxsus hesablar vasitəsilə "youtube" və "facebook" sosial şəbəkələrində Azərbaycan dilində yerləşdirdiyi video müraciətlərində, yayımladığı video görüntülərdə və paylaşımlarda hakimiyyətin zorla ələ keçirilməsi və zorla saxlanılmasına, habelə ölkəmizin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə və ərazi bütövlüyünün parçalanmasına yönələn ifadələr işlətməklə Azərbaycan Respublikası vətəndaşlarına müraciət edərək hakimiyyət nümayəndələrinin qanuni tələblərinə fəal itaətsizlik və müqavimət göstərilməklə kütləvi iğtişaşlar və zorakılıqlar etməyə açıq çağırışlar edib. Həmçinin, Elvin İsayevin qabaqcadan əlbir olan bir qrup şəxs halında cinayət əməllərində iştirak etmiş Orduxan Bəbirov, Qurban Məmmədov, Orxan Ağayev, Rəfael Piriyev, Əli Həsənəliyev, Tural Sadıqlı və Süleyman Süleymanlı barəsində Cinayət Məcəlləsinin 12.1, 34.2, 220.2 və 12.1, 34.2, 281.2-ci maddələri ilə ayrıca icraata ayrılmış cinayət işi üzrə həmin şəxslər təqsirləndirilən şəxs qismində cəlb ediliblər, Baş Prokurorluğun təqdimatı əsasında Nəsimi rayon məhkəməsinin müvafiq qərarları ilə barələrində həbs qətimkan tədbiri seçilib.

Gördünüz ki, "mənəm-mənəmliklə" iş bitmir. Ancaq görünür, abırsızın abrı olmadığı kimi...

## "Milli Şura"nın virusları lap iyrəncdirlər...

Əgər bir adam ki, mənəviyyat nə olduğunu bilmirsə, ondan nəyisə ummaq mənasızdır. Elə özlərini əxlaqlı, savadlı, haqq tərəfdarı sayırlarsa, bu gün qeybətxana yuvası olan "Milli Şura"nın keçirdiyi "iclaslarında" yenidən pandemiyanın uzadılmasının müxalifətə xeyri olduğunu niyə sevinclə bildirir və niyə hökumətə qarşı antitəbliğat kampaniyasına "bir çox tanınımış ziyalıların" da cəlb olunmasının vacibliyini xüsusi qeyd edirlər? Çünki sentyabrın 10-da keçirmək istədikləri razılaşdırılmamış yürüşləri yenə də xalqın qınağına səbəb oldduğundan indi də ardıcıl olaraq soial şəbəkələrdən dövlətin, xalqın ünvnına təhqirlər, böhtanlar deməyə. Bu yerdə saçına, başına qiymət verməyən, ABŞ-da oturub qeybətxana yuvasına "təkliflər" yağdıran "Milli Şura"nın sədri Cəmil Həsənli bildirir ki, "ölmək-ölməkdir, xırıldamaq, nə deməkdir? Hamı bu "xalqın kanalını" eşitsinlər, ancaq və ancaq artıq susmaqğın zamanı deyil. Koronavirus deyə-deyə əl-ayağımızı bağlayıblar. Artıq zaman dar". Bax budur, səviyyəsizlik, mənəviyyatsızlıq, nankorluq. Mən onun üzünə baxarkən bir daha şahid oldum ki, olmayan ağılı da gedir, necə deyərlər: "atdığını, tutduğunu" anlamır. Hələ də anlamır ki, xalq 90-cı illərin düşüncəsində olan xalq deyil, pisi yaxşıdan, kimin-kim olduğunu da artıq bilir. Görünür, bu qoca huşsuz, təhqir etmirəm, çünki bəli bu qoca huşsuz qəribədir ki, təhqirli, böhtanlı sözləri unutmur, ancaq onu da yaxşı bilir ki, 2003-cü ildən xalq sizləri arxivin o tozlu zibilliyinə tullayıb. Elə bu anda ələyçinin qıl verəni, mənəviyyatsız Gültəkin Hacıbəyli bildirir ki, "yenə də neftin qiyməti düşdü, vəziyyət daha da pisləşəcək, məqamdır səsimizə səs verin" çağırışın eşitdikdə, yerimdən öz-özümə: "bu qədər də nankorluq olar",- dedim. Hansı xalqı "ayağa qalx" çağırışını edirsən? O xalqın ki, əlildir, veterandır, qaçqındır, imkansızdır, şəhid ailəsidir, zor gücü ilə torpaqların əlindən almısan? Əslində, hər şeylərini satıb-satılan mənəviyyatsızlardan, AXCP sədri kimi satan, satılan Əli Kərimlinin "pultu" ilə idarə olunanlardan ancaq belə sözlər eşitmək olar. Bax, budur kor olmaq. "Haqq yolundan" dəm vuran G.Hacıbəyli, C.Həsənli, Sevinc Osmanqızı, Vidadi İskəndərli, Qəqimət Zahid kimilər hələ bu günə kimi, haqla nahaqqı ayırd edə bilməyib. Çünki qrantlara satılmağa adət edən bu nankorlar daxilən o qədər miskinləşiblər ki, bizimçün dünya boyda Azərbaycan gözlərinə başdan sona zülmət içində, qaranlığa qərq olmuş kimi görünür. Niyə? Yalınız azalıb? Dərdiniz nədir? İstər sən G.Hacıbəyli, istər C.Həsənli deputat olduğunuz müddətdə yediniz, dağıtdınız, "at oynatdınız", indi nə oldu? Çünki sizin kimi işlənmiş alətlər və "tryapkalar" Vətənin uğurlarına sevinməmisiniz. Doğru deyiblər: "kor gözləri görməyən deyil, görmək istəməyəndi". Çünki sizin kimilərin tarix boyu cəmiyyətə qazandırdığı və qazandıracağı heç nə olmayıbdı. Özünüzü "Milli Şura"nın "əzabkeşi" kimi qələmə verməklə "şərəf" duyursunuz. Bax, bu yerdə deyirlər: "başçısı gülüm olanın başına külüm olar". Və Vətənindən, dövlətindən üz çevirən belə nankorların bir adı var - MƏNİVİYYATSIZLAR!!! Mənəviyyatsız Əli Kərimlinin törəmələri....Bu mənəviyyatsız, satqın Əli Kərimli bar-bar bağırır ki, qoymayın, Azərbaycanda söz və fikir azadlığı pozulur, guya "facebook" YAP-çılar üçün qorxulu kabusa çevrilib" (?!-R.) Şəxsən mən YAP-çıyam və "facebook" mənim üçün heç bir qorxulu kabusa-filana çevrilməyib. Eləcə də, digər yeni azərbaycançılar sosial şəbəkələrdə əlikimilərin cavablarını lazımi qaydada verməklə, onu yerində otuzdururlar. Və əslində, qorxulu kabus məhz Ə.Kərimli üçündür. Əgər qanunvericilikdə sosial şəbəkələrə nəzarət müəyyən edilərsə, onda Ə.Kərimlinin də dili qısalacaq və İ.Qəmbərə yeni-yeni söyüşlər yazdıra bilməyəcək. Artıq geriyə yol yoxdur. O zaman atdığınız bu böhtalara, satqınçılığa görə xalqın cəzası böyük olacaq və dövlətin, millətin maraqlarını heçə sayan Ə.Kərimli-C.Həsənli, S.Osmanqızı, Q.Zahid, Vidadi İskəndərli ligər anti-milli ünsürlərin şər və böhtanlarını bağışlamayacaq və sərt ölçü götürmələrini, cəmiyyətdən təcrid olunmalarını tələb edəcək. Və bu haqq-hesab isə çox ağır olacaq...

***RƏFİQƏ***

# İftixarlı İftixar

***Həyatda cürbəcür talelər olur. Bəzən deyirlər ki, taleni insan özü seçmir, Tanrıdan gələn bəxşişdir. Amma bir həqiqət də var ki, insan öz taleyinin quluna çevrilib qalmamalı, Allahın verdiyi ağlın, düşüncənin gücünə sığınıb taleyinə yön verməlidir. Onda Ulu yaradanın sevimli bəndəsi kimi yaşadığı həyatda uğur qazanar və xeyirli, bərəkətli bir ömür yaşayar. Məhz uzun illər tanıdığım İftixar Piriyev kimi...***



İftixar Piriyevi ilk dəfə televiziyada görmüşdüm. Əlibala Hacızadənin "İtgin Gəlin" teleserialındakı Əbdül obrazından tanıdım onu. Sadəcə minlərlə tamaşaçısından biri kimi. Amma heç vaxt ağlıma gəlməzdi ki, sevə-sevə baxdığım bir serialın Əbdülü ilə illər sonra bir rayonda çalışacaq, eyni siyasi əqidəni bölüşəcəyik. İftixar müəllim mənim də uzun illər işlədiyim, yaşadığım Binəqədi rayonunda yerləşən C. Cabbarlı adına İrəvan Dövlət Azərbaycan dram teatrının direktoru təyin olunduğu gündən onunla çox sıx və isti münasibətlərim yarandı. Əslində bu cür ünsiyyətin formalaşması təbii idi. Çünki təsis olunmasında və fəaliyyətində, təşəkkül tapmasında ilk gündən xidmət göstərdiyim Yeni Azərbaycan Partiyasının üzvü olan İftixar Piriyevi çox qətiyyətli, dönməz, sədaqətli Ümummilli Liderimiz Heydər Əliyevçi kimi tanımışdım.

O, hər bir situasiyada mərdlik, cəsurluq nümayiş etdirməyi bacaran insandır. Bunu onun yaratdığı obrazlar, yazdığı əsərlər, yaşatdığı filmlər, tamaşalar da sübut edir. Yaxşı yadımdadır, bir dəfə mənə dedi ki, Ümummilli Liderimiz Heydər Əliyevin xilaskarlıq missiyasını özündə təcəssüm etdirən "Qurtuluş dastanı" adlı bir əsər yazmışam, onun bəzi detallarını sizinlə müzakirə etmək istəyirəm. Açığı sevinc qarışıq məni maraq bürüdü və dərhalda hə cavabı verdim. Biz görüşdük və əsərin siyasi aspektlərini ciddi müzakirə etdik. Əslində İftixar müəllimin məqsədini anladım ki, O, Dahi Öndər Heydər Əliyevin Naxçıvanda yaşadığı və işlədiyi dövrlərin bəzi məqamlarını dürüstləşdirmək, dəqiqləşdirmək istəyir ki, yanlışlıq olmasın. Uğurlu alınan və Akademik Milli Dövlət Dram teatrın da, eləcədə C. Məmmədquluzadə adına Naxçıvan Dövlət Dram teatrın da səhnəyə qoyulan əsər böyük anşlaqla qarşılandı. Hətta Gürcüstanda doğulub, boya-başa çatan İftixar müəllimi çoxları əslən Naxçıvanlı bildilər. Çünki əsərin Naxçıvan dövrü elə ustalıqla və zərgər dəqiqliyi ilə qələmə alınmışdı ki, bunu yalnız Naxcıvanda yaşayan insanlar bilə bilərdilər. Onun böyük sevgiylə, məhəbbətlə yaratdığı Ulu Öndər Heydər Əliyev obrazı tamaşaçıların yaddaşında silinməz izlər buraxdı...

İftixar müəllim çox vətənpərvər, torpağını, vətəni sevən, dövlətçi şəxsiyyətdir. Binəqədi rayonunda təşkil olinan bir çox tədbirlərdə İftixar müəllimin xüsusi dəsti-xətti var desək, yanılmarıq. Yaradıcı insan olaraq onu xarakterizə edən bir üstün cəhət də ondan ibarətdir ki, o hər şeyə anında və adekvat reaksiya verə bilir. Faydalı məsləhətləri ilə hər bir tədbirə əlavə çalar, məna qatır. İctimai-siyasi prosesləri ədalətli təhlil edən, praqmatik düşüncəyə malik olan İftixar Piriyev çox dəyərli ziyalı, iftixar olunası şəxsiyyətdir. Ömrünün 60-cı ilinin astanasında o yenə də elə gənclik enerjisi ilə çalışır, yazır və yaradır.. Səmimi insan, zəngin bədii təfəkkürə və yaradıcılığa malik olan, ictimai xadim, sənətşünaslıq üzrə fəlsəfə doktoru, yazıçı, publisist, nasir, dramaturq, nəhayət mənim əqidədaşım, silahdaşım, Yeni Azərbaycan Partiyasının fəal üzvü İftixar Piriyevi 60 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona uzun ömür, can sağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

***Vüsar İsmayılov,***
***Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının sədr müavini***

# Sosial şəbəkələrdə “reallıq” axtaranlar...

*Yaxud mitinq düşkünlüyü, yoxsa intiqam hissi?*

***Özünü müxalifət adlandıran, cəmiyyətdə dayağı olmayan, hələ də mitinq və küçə təfəkkürü ilə yaşayan, qrantlara görə hər şeylərini satan ermənixislətli xarici qüvvələrin nökərləri olanlar 30 il əvvəlki ağıl və düşüncə, vərdişləri unuda bilmirlər. Dünya inkişaf edir, demokratik seçki, siyasi mübarizə metodoligiyası təkmilləşir. Demokratik cəmiyyətin əsas atributuna çevrilən xalqın seçimi hakimiyyətin əsas təməli kimi daha da möhkəmlənir. Və hələ də anlamırlar ki, indiki hakimiyyət milli hakimiyyətdir. Azərbaycan müxalifəti isə milli maraqlardan, millilikdən uzaqlaşıb. Müxalifət öz məqsədlərinə nail olmaq, hakimiyyətə gəlmək üçün istənilən fikri işlədir, istədiyi qüvvələrlə əməkdaşlığa gedir. Müxalifət ölkənin və regionun reallığını nəzərə almadan, dünyada gedən proseslərin mahiyyətini anlamadan əsassız, populist, bəyanatlar verir. Mitinq və küçə yürüşləri demokratik mübarizənin, xalqın iradəsinin və sosial sifarişin ifadəsi deyil.***

Mitinq sifarişini verən xarici qüvvələr və bu sifarişin köləsinə çevrilən antimilli ünsürlər anlamırlar ki, Azərbaycan dövləti ilə xalqının monolitliyi, iqtidar və xalq birliyi bütün bu təxribatları iflasa uğradır. Azərbaycan cəmiyyəti radikal müxalifətin bu cür antimilli mövqeyini ikrah hissi ilə qarşılayır. Bütövlükdə isə, xalqın radikal müxalifətə etimad göstərməməsinin səbəbi bəllidir: ölkənin milli mənafeyini özlərinin və xidmət etdikləri qüvvələrin korporativ maraqlarına qurban verməyə hazır olan, ictimai şüuru manipulyasiyaya məruz qoymağa çalışan, dağıdıcı çağırışlar edən, radikal-ekstremist qüvvələri dəstəkləyən, həmçinin bu kimi bir çox antimilli hərəkətləri fəaliyyətlərində əsas istiqamət kimi götürən dağıdıcı qüvvələrə etimad göstərmir!




### Əli Kərimli: “Biz xaricdə internet TV və sosial şəbəkədə çıxış edənlərlə birgə hərəkət edirik”

Göründüyü kimi, AXCP sədri satqın Əli Kərimli bünövrədən çirkabla həyata göz açıb. Göründüyü kimi, mitinq xəstəsi Əli Kərimli bu günlərdə katibəsi, ata qatillərinin müdafiəçisi Sevinc Osmanqızının kanalında verdiyi müsazibəsində bildirir ki, guya “sosial sifariş olduğu üçün mitinqlərə başlamaq qərarına gəliblər”. Unudur ki, sosial sifariş çoxminlyonlu cəmiyyətin hər bir üzvünün tələbidir. Məsələ ondadır ki, cəmiyyətin kiçik bir qisminin arzu və istəkləri ümumilikdə sifariş deyil, müəyyən qüvvələrin maddi-siyasi maraqlarının ifadəsidir. Gülünc və absurd düşüncə. 150-200 insanın mintinq ehtirası hansı sosial sifariş ola bilər? Ancaq mitinqin həqiqətən sifariş olduğunu da gizlətmək olmaz, bu sifarişin mənbəyi isə Azərbaycan deyil, Qərbdəki anti-Azərbaycan qüvvələridir. Bunu Kərimlinin fikirləri də çılpaqlığı ilə ortaya qoyur. Onun “biz xaricdə internet TV və sosial şəbəkədə çıxış edənlərlə birgə hərəkət edirik” fikri də xaricdən idarə olunduqlarını, sifarişin də, məhz xarici ağaların verdiyini təsdiqləyir.

Göründüyü kimi, mitinq və digər aksiyalar “Milli Şura”nın və Əli Kərimlinin qrant layihəsinin bir hissəsidir. Bu layihələrin məqsəd və məramı gizli deyil, Azərbaycan dövlətini, Azərbaycan hakimiyyətini hədəf seçmək.

Həm ölkə daxilindəki “beşinci kolon” nümayəndələri, həm də “mühacir” adı ilə xaricə sığınan antimilli ünsürlər ermənipərəst mərkəzlərdən aldıqları qrantların “haqq”ını vermək üçün istənilən hadisədən, mövzudan istifadə etməklə ölkədə qarışıqlıq yaratmaqdır.

### Nədir AXCP-nin azarı?...

Azərbaycan ölkəsi inkişaf etmiş ölkələr sırasında ən yüksək pillədədir. Azərbaycan dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir, ölkəmizin beynəlxalq mövqeyi davamlı olaraq möhkəmlənir. Bununla yanaşı, ölkəmizdə zamanın çağırışlarına uyğun olaraq genişmiqyaslı islahatlar həyata keçirilir, ölkəmizin qüdrətinin daha da artmasına xidmət edən mühüm addımlar atılır. Azərbaycan dövlət başçısının apardığı siyasət ona köklənib ki, hər bir Azərbaycan vətəndaşı özünü güclü dövlətin layiqli bir vətəndaşı kimi hiss edə bilsin. Humanist olması ilə yanaşı, Azərbaycan prezidenti milli maraqlarda qətiyyən güzəştə getmir.

“Beşinci kolon”un satqın “sülaləsi” - Əli Kərimlini, Sevinc Osmanqızını, Cəmil Həsənlini, Qənimət Zahidi, Xədicə İsmayılı, Vidadi İskəndərlini, Arif Məmmədovu...və bu kimi erməniyə satılanları nə maraqlandırır? Əli Kərimli deyir ki, “əgər ölkənin daxilində ciddi dirəniş olmasaydı, bu gün baş verənlər olmayacaqdı. Bunu bilin, biz meydanda olanda dünya bizi eşidəcək!”. Nə qədər rəzil düşüncə!

Başqa cür də düşünə bilməzlər. Çünki xarici qüvvələrin təsiri altında, onlardan maliyyə asılılığında olan bu satqın, antimilli ünsürlər və onların təlimatçıları hər cür dövlət mənafeyini satmağa, Vətəninə xəyanət etməyə hazırdır. Çünki “beşinci kalon”un satqınları xarici antiazərbaycan dairələrdən aldığı pullarla ölkəmizə, müstəqilliyimizə qarşı mübarizə aparan erməni lobbisi və terrorçularla həmişə bir səngərdə yer alan antimilli ünsürlərdir. Azərbacan dövləti və dövlət başçısı hər addımında milli maraq və mənafeləri uca tutur. Azərbaycanda hakimiyyət tərəfindən aparılan siyasətin ən başlıca vəzifəsi azərbaycan vətəndaşın dahada firavan yaşamasıdır.

Radikal ünsürlər isə - əməlləri ilə anti-Azərbaycan dairələrin əlaltısı qismində çıxış edən, siyasi fəallığı siyasi satqınlıq kimi qavrayan Arif Məmmədov, Ramiz və Leyla Yunuslar, Cəmil Həsənli, Əli Kərimli, Sevinc Osmanqızı, Gültəkin Hacıbəyli və bu kimilər açıq şəkildə ermənipərəst mərkəzlərin direktivlərinə əsaslandıqlarını ortaya qoyurlar. Bir həqiqəti anlamaq lazımdır ki, milli dönüklərin, xəyanətkar ünsürlərin bəd niyyətləri iflasa məhkumdur. Məğlubiyyət, uğursuzluq və bacarıqsılıq boyunlarına biçilib bu satqınların və artıq tarixin istifadə olunmuşlar bölməsindəki eksponatlardır.

Fizikadakı adi hərəkət qanununa görə, dalğa bir yerdə qala bilməz; o, fasiləsiz olaraq irəli və geri hərəkət etməlidir. Tarix də elədir. İctimai həyatın çirkin ifrazatı radikal ruhlu müxalifətin sıralarında yer aldığına görə o nə isə etmək, bacarmaq, yaratmaq iqtidarında deyil. Bir də deyirlər ki, dəniz çirkab götürmür; o, yad cisimlərdən xilas olmaq üçün güclü dalğaları ilə vurub sahilə çıxarır. Öz doğuşu və təşəkkülü ilə ən yeni tariximizin ikrahdoğurucu səhifələrindən birini yazmış radikal, antimilli müxalifət də cəmiyyətimizin kükrəyən inkişaf ahənginin miqyaslarına tab gətirməyərək siyasi səhnədən silinməkdə, çökməkdə, iflas etməkdədir.

Vətənindən, dövlətindən üz çevirən şəxsin hərəkətlərinin bir adı var - mənəviyyatsız!. Bu satqınlar bilməlidirlər gec-tez xalqın qarşısında ən ağır cəzələrını alacaqlar, özü də bağışlanılmayan cəzalarını!

**Rəfiqə HÜSEYNOVA**

## Azərbaycanda tibbi maska ucuzlaşıb



Azərbaycanda tibbi maskanın qiyməti 17% ucuzlaşıb. Xəbər verilir ki, tibbi maskanın bir ədədi apteklərdə 25 qəpiyə təklif olunur.

Bir çox əczaçılar artıq sentyabr ayından başlayaraq qiyməti endirdiklərini bildirirlər. Buna səbəb kimi isə Azərbaycanda istehsal olunan tibbi maskanın apteklərə bu qiymətə verildiyi bildirilir. Qeyd edək ki, ötən aylarda tibbi maskanın bir ədədi apteklərdə 30 qəpiyə təklif olunurdu.



## Sən hara, Belarus xalqı hara...

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Əli Kərimlinin və həndəvərinin sosial şəbəkələr vasitəsi ilə Tofiq Yaqublu ətrafında var-gəlləri arxasında hansı maraqlarının dayandıqlarını yenidən izah etməyə gərək yoxdur. Yəni bəllidir ki, həmin var-gəllər heç də Yaqublunun sağlamlığından təlaşlanmaq, vəziyyətindən narahat olmaq kimi məsələlərə aid deyil. Məsələlər yalnız və yalnız şəxsi siyasi mənfəətlərə hesablanıb, bu da birmənalıdır.***

Amma Tofiq Yaqublunun həbsi, məhkəmə qərarı və ən nəhayəti, aclıq elan etməsi arxasından yıtrılan boğazlara, yolunan saçlara daha bir məsələnin, xüsusilə Azərbaycana heç bir aidiyyatı olmayan məsələnin də qatılması, əslində anlaşılan deyil. Anlaşılan deyil ki, Belarusda baş verən məlum hadisələrin bunlara hansı aidiyyatı ola bilər? Yaxud, Tixanovskayanın ölkəsində olmamasına baxmayaraq, müxalifətçilərin küçələrə çıxıb icazəsiz aksiyalar keçirmələri nəyə görə Əli Kərimlini bərk narahat edir? Əslində, bu sualın cavabı elə eualın özündədir.

Baxın, belarus müxalifətçilər özlərinə lider seçdikləri şəxsin ölkədə olmamasını xəyanət ölçüsü ilə ölçmürlər. Yəni o ölkədə olmasa belə, elektoratı ortadadır və s. Amma...

### Harada idi fesybukunda hər gün “Jive Belarus” yazıb, sərsəm-sərsəm rəyləri ilə siyasi düşüklük edən Gültəkin Hacıbəyli?

Amma fakt budur ki, Əli Kərimli ölkədə ola-ola, “Milli Şura”nın “başbilənləri” də burada olduqları halda onlara heç bir dəstək-filan yoxdur. Elə götürək ötən həftə Tofiq Yaqubluya görə küçəyə çıxan beş-on nəfər küyə düşənləri. Bəs harada idi Əli Kərimli? Harada idi fesybukunda hər gün “Jive Belarus” yazıb, sərsəm-sərsəm rəyləri ilə siyasi düşüklük edən Gültəkin Hacıbəyli? Harada idi həftədə-bir “zoom” toplantı keçirib özlərini xalqa güldürən digər siyasi polyaçılər? Heç biri yox idi... Yarısı Fransada, yarısı ABŞ-da, yarısı da öz kef-damağında. Axı nələrinə lazımdır Tofiq Yaqbublunun azadlığa çıxması? Yaxud, Tofiq Yaqublunun onlara lazım olan cəhəti həbsdə qalması, aclıq etməsi, hətta sağlamlığını itirməsi, hətta və hətta ölməsidir!

Beləliklə, indi də yazırlar ki, Tixanovskaya ölkəsində olmasa da, onu dəstəkləyənlər küçələrdədirlər, ona görə də əgər Əli Kərimli küçələrə çıxmasa da, dəstəkçiləri küçələrə çıxmalı, sabitliyi pozmalı, qanunsuzluqlara rəvac olmalıdırlar (?!) Onları narahat edən, yatmağa qoymayan, qorxuya salan budur ki, Azərbaycanda olsalar da, heç bir ictimai, siyasi dəstək görə bilmirlər.

### Daha Belarusa, Venesuelaya, hətta Uqandaya belə getməyə gərək-filan yoxdur...

Ya da bir müddət əvvəl Bakının mərkəzində qanunsuz aksiyada elə Tofiq Yaqublu ilə qol-qola girəndə də, Əli Kərimli heç bir dəstək almadı, fəqət başı azca cızılanda bunu az qala “fəlakət”, “faciə” kimi təqdim edib, guya həyatının ölümlə üz-üzə qaldığını utanıb-qızarmadan bəyan etdi. Yadınızdadırsa, Sevinc Osmanqızı da ağlaşma ssenarisi qurub, normal düşüncəli insanların sözün səl mənasında ətini tökdü.

Nəticədə, Əli Kərimliyə sual yaranır ki, axı sən hara, Belarus xalqı hara?! Bax, məsələ də bundadır. Məsələ bundadır ki, adıçəkilənlər hər zaman başqalarında əldə edilən uğurların nəyə görə özlərində olmamasından ciddi narahat olurlar, amma günahını hakimiyyətdə axtarırlar. Halbuki, günah da elə özlərindədir. Bir filmdə deyildi kimi, “axı nəyə görə bizdə də o əjdahadan yoxdur?” Yoxdursa, günahını da özlərində axtarsınlar bir zəhmət. Daha Belarusa, Venesuelaya, hətta Uqandaya belə getməyə gərək-filan yoxdur...

# Dağlıq Qarabağ və ona bitişik rayonlarda ermənilər meşələrimizi məhv edir

***Həkəri və Bərgüşad çayları sahillərində vaxtı ilə salınmış göylərə boy verən çinar, qoz, tut, ərik, albalı, tənək ağaclarından əsər-əlamət görünmür. Onların əvəzinə kəndləri şaytan ağacı, ilqınlıq, cılız söyüd ağacları və qamışlar basib ki, bu da sahibsizlikdən, xarabazarlıqdan, vahiməli bir aləmdən xəbər verir.***

Avropa Şurası Parlament Assambleyasının 29 yanvar 2004-cü il tarixli iclasında Azərbaycanın nümayəndəsi Rafael Hüseynov çıxış edərkən öz məruzəsində belə bir faktı qeyd etmişdi ki, 1995-ci ildən Amerika milyarderi Ohonesyan ərazisi 25 min km olan Laçın meşələrini icarəyə götürmüşdür. İcarəyə götü-rülmüş həmin sahələr qırılaraq mebel hazırlamaq üçün Amerikaya daşınır. Bu sənədi bir çox ölkələrin deputatları və siyasətçiləri də təsdiqləyərək imzalamışlar. Bundan əlavə, sənəddə göstərilirdi ki, Dağlıq Qarabağın 250 min hektar meşə sahəsi nüvə tullantıları ilə çirkləndirilmişdir.

Laçın rayonunun Bozlu, Kamallı, Çıraqlı və s. kəndləri, eləcə də Zəngilan-Qubadlı meşələri yandırılaraq məhv edilmişdir. 1996-cı ildə "Daşbaşı" və "Leşkar" meşələrində ermənilər tərəfindən yanğınlar törədilmiş və həmin ilin payızında "Leşkar" meşə sahəsindəki yararlı ağaclar tamamilə qırılıb aparılmışdır. Qeyd edilməlidir ki, "Leşkar" meşə sahəsində 1957-1958-ci illərdə 55 ha ərazidə qoz meşəsi salınmışdı və həmin 40-50 illik qoz ağacları ermənilər tərəfindən məhv edilməkdədir. 1996-1997-ci illərdə ermənilər Top və Şükürataz meşələrinə traktorlarla yol çəkmişlər. Bu zaman həmin meşə sahələrində olan 350-400 il yaşlı palıd ağacları kəsilərək Ermənistana daşınmışdır. Bunu 2002-ci ilin 11-12 sentyabr tarixində Tbilisidə "Qafqaz ekoregionunda meşələrin qorunması və davamlı istifadə olun-ması" mövzusunda keçirilən konfransda Ermənistanın Təbiəti Mühafizə Nazirliyinin rəsmisi öz çıxışında xidməti və sanitar qırmalarının ümumi həcminin 70 min m3 olduğunu və xidməti qırmalar zamanı istehsal olunan 14-15 min m3 içlik materialın Yunanıstana və İrana ixrac edildiyini söyləməsi faktı bir daha sübut edir. Ermənistan ərazisində göstərilən həcmdə ağac materialı istehsal etmək imkanının olmaması bunun yalnız işğalda olan Azərbaycanın meşələri hesabına baş verməsini təsdiqləyir.

Hazırkı dövrdə Qazax meşəbəyiliyinin ermənilərlə sərhəddə olan 849 hektar meşə sahələri Ermənistan əhalisi tərəfindən kəsilib aparılır. Qazax Meşə Mühafizəsi və Bərpası Müəssisə-sinin Ceyrançöl meşəbəyliyinin ərazisinin bir hissəsi (200 hektar) Ermənistandan gələn su kanalı ilə suvarılırdı. Həmin meşələr 1951-1953-cü illərdə salınan və tarlaqoruyucu funksiyaları yerinə yetirən zolaqdan ibarətdir Lakin 1991-ci ildən bu günə qədər həmin su kanalı ermənilər tərəfindən kəsildiyinə görə meşə sahələrini suvarmaq mümkün olmamışdır. Nəticədə salınmış 130 hektara qədər sahədə qiymətli ağac növləri quruyaraq məhv olmuşdur.

Meşələrin mühafizəsi və qorunması onların bioloji və digər xüsusiyyətləri nəzərə alınmaqla həyata keçirilir və meşə fondundan səmərəli istifadə, meşələri məhv olmadaqdan, zədələnmədən, zəifləmədən, çirklənmədən və digər təsirlərdən mühafizə sahəsində təşkilati, hüquqi və başqa tədbirlər sistemindən ibarətdir. Azərbaycan Respublikasının ərazisində meşə münasibətlərinin tənzimlənməsinin, meşələrdən istifadənin, onların mühafizəsinin, qorunmasının, bərpasının, ekoloji və ehtiyat potensialının yüksəldilməsinin hüquqi əsaslarını müəyyən edən Azərbaycan Respublikasının Meşə Məcəlləsinə əsasən Meşə təsərrüfatına dəyən zərər və itkilər Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada ödənilir. Meşələrin qırılması bir tərəfdən torpağın yuyulmasına və digər tərəfdən aridləşməsinə səbəb olur. Belə sahələr səhralaşmaya şərait yaradır. Meşə qanunvericiliyinin pozulmasında təqsiri olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun intizam, inzibati, mülki və cinayət məsuliyyəti daşıyırlar. Meşələr yanacaq və tikinti materialı, dərman maddələri və sənaye üçün xammal mənbəyidir. Meşələrin ətraf mühitə havaya, torpağa, suya və heyvanlar aləminə təsiri çox böyükdür. O, mühüm təbii ehtiyatlar kompleksidir. Meşələr xalq təsərrüfatı əhəmiyyətinə görə qruplara ayrılır. Azərbaycanın Meşə qanunvericiliyinə əsasən meşələr birinci, ikinci və üçüncü qrupa bölünür:

- Birinci qrup meşələrlə suyu mühafizə edən meşələr, çay və göllərin sahilləri boyu olan qoruyucu meşələr, sıldırım dağ yamaclarındakı meşələr, dövlətqoruyucu meşə zolaqları, nəqliyyat yolları boyunca uzanan meşə zolaqları, qiymətli meşə massivləri, sanatoriya-gigiyena və sağlamlaşdırıcı əhəmiyyəti olan meşələr (şəhərətrafı meşələr, şəhər və müəssisətrafı yaşıllıqlar, kurort meşələri, su təchizatı zonasının meşələri), qoruqlar, milli və təbii parklar, elmi və tarixi əhəmiyyətli meşələr, meşə-parklar aid edilir.
- İkinci qrup meşələrə əhalisi çox sıx olmayan rayonlardakı meşələr, nəqliyyat yolları şəbəkəsi və sənayesi inkişaf etmiş rayonlardakı məhdud istismar əhəmiyyətli meşələr, habelə birinci qrupa daxil olmayan meşələr daxildir.
- Üçüncü qrup meşələrə intensiv istismar edilən meşələr aid edilir. Bu qrupa daxil olan meşələrin 46%-i istifadədir, qalanı isə ehtiyatda saxlanılır. Onlar təbii mühitin bir hissəsi kimi, bir sıra aşağıdakı ekoloji və iqtisadi funksiyaları yerinə yetirir:
- atmosferin tərkibinin normalaşdırılmasında mühüm rol oynayır;
- ekoloji zərərlə tullantıları assimilyasiya edir;
- qlobal iqlimi formalaşdırır;
- su dövriyyəsinə böyük təsir göstərir;
- torpaqların münbitliyini qoruyur;
- sürüşmələrin, eroziyanın qarşısını alır;
- bitki və heyvanat aləminin məskunlaşdığı yerlərdir;
- rekreasiya və estetik funksiyaları yerinə yetirir;
-müəyyən dərəcədə ölkənin ekoloji-iqtisadi təhlükəsizliyini təmin edir;
- iqtisadiyyatın bir çox sahələri üçün xammal mənbəyidir.

Müasır qiymətləndirmə-yə əsasən meşələrin ilk 8 funksiyasının istifadəsindən gələn gəlir (ekoloji və iqtisadi gəlir) meşədən istifadə sahəsindəki istehsal fəaliyyətindən əldə olunan gəlirdən çoxdur. Bu sahədəki vəziyyət bazarın - uğursuzluğunun və təbii resursların tam qiymətləndirilməməsinin klassik nümunəsidir. Bu öz əksini meşələrin strukturunun, keyfiyyət tərkibinin pisləşməsində, meşələrin məhv olunmasında tapır.

Bundan başqa meşələrin itirilməsi iqlim dəyişiklikləri və atmosfer transformasiyaları riski, su ehtiyatlarının keyfiyyətinin pisləşməsi, biorəngarəngliyin itirilməsi və s. kimi insanın həyat fəaliyyətinə və deməli, indiki və gələcək cəmiyyətin sağlamlığı üçün mənfi təsir göstərir. Meşələr bir növ rütubət toplayıcısı rolunu oynayır və düzənliklərə suyun paylanmasını tənzimləyir, onu nisbətən tarazlaşdırır, dağlıq rayonlarda torpaq sürüşməsi və dağ uçqunlarının qarşısını alır. Eyni zamanda, meşələr fitonsit xüsusiyyətinə malikdir və zərərli mikroorqanizmləri məhv edir. Meşələr bitkiləri, torpağı, su hövzələrini, yolları, yaşayış məntəqələrini, abidələri təbii amillərin zərərli təsirindən qoruyur, mikroiqlimi dəyişir, quru, isti, güclü küləklərin təsirini azaldır, dərə, yarğan və hərəkət edən qumları bərkidir, qar örtüyünün bərabər yayılması və tədricən əriməsinə imkan yaradır, buxarlanmanı zəiflədir, qrunt sularının səviyyəsini endirir. Bütün bunlarla yanaşı, meşələrin təbiətdə ən böyük rolu - hər hektarın il ərzində 10-20 ton karbon qazını udaraq əvəzində oksigen ixrac etməsidir. 1 ha meşə sahəsi 1 saatda 8 kq karbon qazını udur, bu da 1 saatda 200 nəfərin nəfəsi ilə havaya buraxılan karbon qazının həcminə bərabərdir.

Meşələrin geniş ərazisindən biri də Kiçik Qafqaz sıra dağlarının yamaclarıdır. Burada meşələr ayrı-ayrı massivlər şəklində əsas dağ qollarının şimal, şimal-şərq və şərq yamaclarını örtür. Bu meşələrin uzun müddətdir Ermənistanın işğalı altında olması Azərbaycana çaxasahəli zərərlər vurmuşdur. Meşə sahələrinin qiymətləndirilməsi aşağıdakı metodologiyaya əsasən aparılmışdır:

- meşə fondunun istifadəsinə görə icarə ödənişləri;
- resursların iqtisadi qiymətləndirilməsi;
- meşə təsərrüfatından istifadə imkanları.

Meşə sahələrinə ərazidə yerləşən bitki, binalar, qurğular, yollar və s. daxildir. Qiymətləndirmədə meşə sahələrinin çoxfunksionallığı, onların effektivliyi və s. nəzərə alınır. 131 Yekun itkinin həcmi: 210 056 677 azn/il və ya işğal dövrü ərzində itkilərin həcmi 4 621 246 894 azn təşkil edir. Beləliklə, meşə sahələri üzrə yuxarıda göstərilən əsaslar üzrə dolayı zərərlərin məbləği 7 460 380 686 manat civarındadır. Hərbi münaqişə, qaçqın və məcburi köçkünlərin problemlərinin təbiə tə, o cümlədən meşələrə təsiri nəticəsində meşələrin sahəsi həm azalır, həm də sanitar və fıtosanitar vəziyyəti pisləşir. Meşələrin su və torpaq qoruyucu funksiyalarının, iqlimin formalaşmasına təsiri nəzərə almaqla, bu potensialın qorunması və səmərəli istifadəsi olduqca vacibdir. Eyni zamanda, ölkənin torpaq-iqlim şəraiti yeni meşə zolaqlarının salınması üçün olduqca əlverişlidir. Belə meşə zolaqlarının salınması yeyinti və ağac emalı sənaye sahələrini xammal ilə təmin etmək üçün əhəmiyyətlidir və yeni iş yerlərinin açılmasına təkan verə bilər. Bu məqsədlə müvafiq layihələrin hazırlanması tələb olunur.

Azərbaycan Respublikası hazırda ərazilərinin erməni işğal altında olması ucbatından bütün bu mənfəətlərdən məhrumdur. Dövlət tərəfindən qorunan dövlət təbiət abidələri Təbiət abidələri xüsusi ekoloji, elmi, mədəni və estetik əhəmiyyəti olan təbiət obyektləridir. Təbiət abidəsi obyektlərinə konkret coğrafi zona üçün səciyyəvi olan nadir landşaftlar və yaxud ayrı-ayrı ünsürlər, yerli ağac qruplarının etalonunu təşkil edən və nadir növ tərkibinə görə seçilən qiymətli meşə sahələri, endemik və ya məhv olmaq təhlükəsinə məruz qalan bitkilərin yaıldığı yerlər, çoxyaşlı ayrı-ayrı ağaclar, həmçinin geoloji açılışlar, palçıq vulkanları, mağaralar, paleontoloji və paleonəbatat qalıqlarının çöküntüləri, bulaqlar, nadir göllər və digər yerlər aid edilir. Təbiət abidələri yerləşən ərazilərdə xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilir və onların təbii vəziyyəti qorunub saxlanılır və bunlar, hər hansı fiziki və hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan dövlətinə mənsubdur və özgəninkiləşdirilə bilməz.

Təbiət abidələrinə aid edilən obyektlər və onların yerləşdiyi ərazilər təsərrüfat istismarından çıxarılır və orada təbiət abidələrinin təbii vəziyyətini pozan hər hansı fəaliyyət qadağan edilir. Təbiət abidələrindən Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən müəyyən edilmiş qaydada elmi, mədəni və tədris məqsədləri üçün istifadə oluna bilər. Təbii fəlakət nəticəsində və digər səbəblərdən təbiət abidəsi zədələndiyi və ya məhv olduğu halda təbiət abidəsinin yerləşdiyi ərazinin torpaq mülkiyyətçisi, istifadəçisi və icarəçisi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müraciət etməlidir. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi əmrlə bu nazirliyin mütəxəssislərinin, alimlərin və müvafiq yerli icra hakimiyyəti orqanlarının nümayəndələrinin iştirakı ilə komissiya yaradır. Komissiyanın üzvləri təbiət abidəsinə baxış keçirərək onun bərpası tədbirlərini hazırlayır, abidə məhv olduqda isə akt tərtib edirlər. Hər iki halda müvafiq sənədlər Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim edilir. Zədələnmiş təbiət abidəsi Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mütəxəssislərinin və alimlərin nəzarəti altında bərpa olunur. Məhv olmuş respublika əhəmiyyətli təbiət abidəsi Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təqdimatı əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti, bölgə əhəmiyyətli təbiət abidəsi isə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ləğv olunur. Təbiət abidələri yerləşən ərazilərdə xüsusi mühafizənin hüquqi rejiminin pozulmasında təqsirkar olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada mülki, maddi, inzibati və cinayət məsuliyyəti daşıyırlar. Qanun pozuntusu nəticəsində təbiət abidələrinə vurulmuş zərər Azərbaycan Respublikasının Mülki Məcəlləsində və təbiətin mühafizəsi ilə bağlı digər qanunvericilik aktlarında nəzərdə tutulmuş qaydada ödənilir.

Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 1982-ci il 16 mart tarixli 167 №-li Qərarına 2 saylı əlavə ilə Azərbaycanın "Dövlət tərəfindən qorunan dövlət təbiət abidələrinin - xüsusilə qiymətli meşə sahələrinin" mühafizə olunaraq artırılması məqsədilə uzun illər geniş tədbirlər həyata keçirilmiş və külli miqdarda maliyyə vəsaiti xərclənmişdir. Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində 13197,5 hektar qiymətlimeşəsahələri, 152ədəd təbiət abidəsi və5 ədəd geoloji-paleontoloji obyekt vardı ki,bunlar da hazırda ağır, misli görünməmiş talanla üz-üzə qalmışdır.

**Vahid Ömərov f.ü.f.d.dos.**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Səs
Qəzet 1991-ci il yanvarın 11-dən çıxır
15 sentyabr
Son səhifə

# Mənzil qiymətinə satılan ada



***Şotlandiyada mənzil dəyərində ada satışa çıxarılıb. Axşam.az xəbər verir ki, qiyməti 500 min funt sterliq olan ada "Inchconnachan" adlanır. Mütəxəssislər qeyd ediblər ki, bu məbləğ Londonda satılan evlərlə bərabər qiymətdədir.***

Sahəsi 42 hektar olan adada 1920-ci illərdə tikilmiş taxta ev də var. Lox-Lomond gölünün ortasında yerləşən ərazidə 5 yataq otağından ibarət malikanə də tikməyə icazə verilib.

# "Qalatasaray" Bakıya nə vaxt gələcək?




***İstanbulun "Qalatasaray" futbol klubunun üzvlərinin Bakıya gələcəyi vaxt müəyyənləşib. AZƏRTAC xəbər verir ki, UEFA Avropa Liqasının II təsnifat mərhələsi çərçivəsində Bakıda keçiriləcək "Qalatasaray"-"Neftçi" matçı üçün Türkiyə təmsilçisinin səfər proqramı müəyyənləşib. Belə ki, komanda sentyabrın 16-da Bakıya gələcək.***

Bu barədə "Qalatasaray" klubunun vitse-prezidenti Abdurrahim Albayrak "Qaziantep" komandası ilə matçdan sonra məlumat verib: "Çərşənbə günü "Neftçi" ilə oyun üçün Bakıya gedəcəyik. Yaxşı nəticə ilə Türkiyəyə qayıtmağı arzu edir və bunu gözləyirəm".

# Filmlərdəki məşhur evi 19 milyona satmaq istədilər

"Yeşilçam" filmlərinin çəkildiyi məşhur ev bir müddət əvvəl satışa çıxarılmışdı. Axşam.az türk mediasına istinadən xəbər verir ki, Kumburgazdakı villanın satışından sahibləri imtina edib.

"Şark Bülbülü", "Aile Şerefi" kimi məşhur filmlərin lentə alındığı 6 265 metr ərazisi olan dənizə yaxın ev 19 milyon lirəyə hərraca çıxarılmışdı. Hərracın isə bu gün baş tutması planlaşdırılmışdı. Hissədarların tələbi ilə villanın satışından imtina edilib.



Hərrac üçün hissədarlardan Mehmet Ergen, Raciye Ercişli, Azade Hısım, Nercal Kaplancalı və Süleyman Tufan Alanyalı məkana gəlib.

Hısım "Orası möhtəşəm bir yerdir. Əvvəl-axır satılacaq. Bir az da bizdə qaldığı üçün xoşbəxtəm. Orada çox vaxt keçirdik. Hər zaman keçmiş günlərdəki kimi qəlbimizdə qalacaq" deyə, söyləyib. 1997-ci ildə Alanyalının ölümündən sonra orada bir müddət uşaqları yaşayıb. 2000-ci illərin əvvəlində isə ev tərk edilib.

# Koronavirus simptomlarını müəyyənləşdirən maska hazırlanıb



***Sinqapur alimləri koronavirus infeksiyasına yoluxmanın simptomlarını müəyyənləşdirə bilən maska hazırlayıblar. Bu barədə AZƏRTAC "The Straits Times" agentliyinə istinadla xəbər verir.***

Maskada nəbz, bədənin istiliyi, təzyiqi, nəfəsalma vəziyyəti və digər bu kimi əlamətlər barədə məlumat toplayan sensorlar quraşdırılıb. Həkimlərin xəstənin vəziyyətini və onda baş verən dəyişiklikləri qiymətləndirə bilməsi üçün sensorlar hər yarım saatdan bir mobil telefondakı xüsusi əlavə vasitə ilə xəstənin səhhəti barədə məlumat ötürürlər. Sensorların özlərinin qoruyucu avadanlıqlarla birlikdə yuyula biləcəyi və hətta bir maskadan digərinə keçirilə biləcəyi qeyd olunur.

Bu texnologiyanı işləyib hazırlayanlar söyləyiblər ki, fərdi qoruyucu vasitələrdəki xüsusi materialla örtülmüş çiplər alınan məlumatlara qarşı həssas olmaqla yanaşı, həm də rütubətə davamlıdırlar. Hazırda maskanın qiyməti 36 dollardan bir qədər çoxdur, lakin kütləvi istehsal zamanı onun qiyməti 14,6 dollara qədər düşə bilər.

Bundan əvvəl Amerika alimləri sübut ediblər ki, kombinə edilmiş materialdan olan cərrahi maskalar və aksesuarlar koronavirusa qarşı ən yaxşı müdafiə vasitələridir. N95 tipli xüsusi cərrahi maskalar və kombinə edilmiş materiallardan hazırlanmış qoruyucu aksesuarlar - məsələn, pambıq və sintetik maskalar yüksək effektivliyi ilə fərqlənirlər. Lakin N95 standartından olan maskaların yüksək qoruyuculuq dərəcəsinə malik olmalarına baxmayaraq, tədqiqatçılar həmin maskalarda quraşdırılmış klapana görə onların təhlükəsizliyinə şübhə ilə yanaşırlar.

# Balqabaq arıqlamaq üçün çox faydalıdır

Arıqlamaq üçün çox faydalı və həm də ucuz olan balqabaq payız aylarında yetişir. Diyetoloq Mixail Ginzburqun sözlərinə görə, balqabaq az miqdarda kaloriyə və şirin dada malikdir. "MedikForum" informasiya portalının yazdığına görə, balqabaq düzgün qidalanma və artıq çəkidən qurtulmaq üçün daha yararlıdır.

"Adətən bütün dadlı məhsullar yüksək kaloriliyə, şəkər və piy tərkibinə malik olur. Balqabaq bu cəhətdən xoş bir istisna olmaqla yanaşı, həm də lifli strukturuna görə olduqca doyumludur", - deyə mütəxəssis bildirib. Diyetoloq onu da xatırladıb ki, arıqlamaq üçün qida rasionu müxtəlif cür olmalıdır.



# Salyanda ikimərtəbəli evdə yanıb



Salyan rayonunun Arbatan kəndində ümumi sahəsi 170 kvadratmetr olan ikimərtəbəli evdə yanğın baş verib. Fövqəladə Hallar Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, nəticədə evin ikinci mərtəbəsində üç otaq 65 kvadratmetr sahədə və qarajda motosiklet yanıb. Evin qalan hissəsi yanğından mühafizə olunub. Alov yanğından mühafizə bölmələri tərəfindən söndürülüb. Hadisə ilə bağlı müvafiq qurumlar tərəfindən təhqiqat aparılır.

# "VAZ-2106" avtomobili 12 yaşlı velosipedçini vurub öldürdü

Sabirabad rayonunda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, rayonunun Quruzma kəndi ərazisində velosiped sürən kənd sakini 12 yaşlı Elşən Həsənov rayon sakini R.Əsgərovun idarə etdiyi "VAZ-2106" markalı avtomobillə vurulub. Nəticədə azyaşlı xəstəxanaya aparılarkən yolda ölüb. Hadisə ilə bağlı Sabirabad Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.



*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**